## Qırğızıstan və Tacikistan xüsusi xidmət orqanları sülh protokolu imzalayıb




**Qırğızıstan və Tacikistanın dövlət təhlükəsizlik komitələrinin rəhbərləri sərhəddə vəziyyətin sabitləşməsi və 2 ölkə arasında sülhün bərqərar olunması barədə protokol imzalayıblar.**

APA-nın xəbərinə görə, bu barədə Turmush agentliyi məlumat yayıb.

Qırğızıstan DTX-nin sədri kamçıbek Taşıyev bildirib ki, Tacikistanla imzalanan protokolun məqsədi vəziyyəti sabitləşdirmək və 2 ölkə arasında sülhü bərqərar etməkdir.

Taşıyev sabah növbəti görüşün keçiriləcəyini də qeyd edib.

Qeyd edək ki, bu gün səhər saatlarında Qırğızıstan DTX Tacikistan tərəfin əsir götürdüyü 4 sərhədçinin qaytarıldığını bildirib.



## Məmmədyarov Kasparovu məğlub edib

Sent-Luisdə (ABŞ) Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarovun iştirak etdiyi "Champions Showdown-2022" turniri başa çatıb. "Şərq" xəbər verir ki, dünyanın tanınmış 10 şahmatçısının iştirak etdiyi turnirdə Ş.Məmmədyarov keçmiş dünya çempionu Kasparova qalib gəlib.

Hazırda Məmmədyarov 4.5 xalla liderdir.

❐ № 169 (5690), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 20 sentyabr 2022-ci il (çərşənbə axşamı)




# Vaşinqton uduzdu

### Atəşi ABŞ yox, Rusiya dayandırdı

**Ermənistan parlamentinin sədri Alen Simonyan sərhəddə baş verən insidentin qarşısının alınmasına və atəşkəsin bərpasına görə ABŞ-a təşəkkür edib. Simonyan bu sözləri ABŞ Nümayəndələr Palatasının rəhbəri Nensi Pelosi ilə birgə mətbuat konfransında səsləndirib:**

"Biz Vaşinqtona sülhün əldə olunmasındakı vasitəçiliyinə görə təşəkkür edirik. Həmçinin, Amerika siyasətçilərinə Azərbaycanın ittiham etdiklərinə görə minnətdarıq". Simonyan Pelosini Azərbaycana qarşı "dəqiq sanksiyalar" tətbiq etməyə çağırıb.

(səh.3)




## Avropa İnsan Hüquqları Məhkəməsinə ilk dəfə qadın Prezident seçilib

**Avropa İnsan Hüquqları Məhkəməsinin yeni Prezidenti seçilib. Bu barədə Avropa İnsan Hüquqları Məhkəməsinin mətbuat xidməti məlumat yayıb.**

Bildirilib ki, bu gün Siofra O'Liri (İrlandiya) yeni Prezident seçilib.

Avropa İnsan Hüquqları Məhkəməsinin ilk qadın Prezidenti olacaq xanım O'Liri Robert Spanonu (İslandiya) bu postda əvəzləyəcək. O, vəzifəsinin icrasına 2022-ci il noyabrın 1-dən başlayacaq.

Qeyd edək ki, yeni Prezident 2022-ci ilin yanvarından bəri vitse-prezident idi.

## İsrail Türkiyəyə səfir təyin edib



**İsrail Türkiyəyə səfir təyin edib. APA-nın İstanbul müxbiri xəbər verir ki, müvafiq qərar İsrail Xarici İşlər Nazirliyi tərəfindən qəbul edilib.**

Bu vəzifəyə İsrailin Ankara missiyasının hazırkı müvəqqəti işlər vəkili İrit Lillian təyin olunub.

Qeyd edək ki, iki ölkə arasında 2018-ci ildən yaşanan gərginlikdən sonra ilk səfir təyinatıdır. Bundan əvvəl Türkiyə tərəfi də İsrailə yenidən səfir göndərəcəyini bəyan edib.

# Nyu - Yorkda üçtərəfli görüş

### Blinken, Bayramov və Mirzoyan bir araya gəlir







**ABŞ, Azərbaycan və Ermənistan xarici siyasət idarələrinin rəhbərləri Ceyhun Bayramov, Ararat Mirzoyan və Entoni Blinken arasında üçtərəfli görüş olacaq.**

Bu barədə sosial şəbəkədə Ermənistan XİN mətbuat katibi Vaan Unanyan məlumat verib.

Xatırladaq ki, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti BMT Baş Assambleyasının 77-ci sessiyasında iştirak etmək üçün ABŞ-ın Nyu-York şəhərinə yola düşüb.

Burada 12-14 sentyabr 2022-ci il tarixində Ermənistan-Azərbaycan sərhəddində baş verən silahlı toqquşma və onun nəticələri müzakirə ediləcək.

Sentyabrın 13-də ABŞ-ın Cənubi Qafqaz üzrə danışıqlar üzrə xüsusi nümayəndəsi Filip Riker Bakıya səfər edib.

(səh.2)

# Saxta göz yaşları...

### Qoca Pelosi xal toplamaq üçün gərginliyi artırdı



**Ermənistana səfər etmiş ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosi son sərhəd toqquşmasında Azərbaycanı günahlandırıb.**

O, ölkəmizi Ermənistan ərazisinə "qanunsuz hücumda" ittiham edib. Pelosi deyib ki, ABŞ "həmsədr" kimi aydın və çoxdan bəyan edib ki, münaqişənin hərbi yolla həlli mümkün deyil: "Biz münaqişənin sülh yolu ilə və uzunmüddətli həllinə çalışmaq istəyirik. "Dağlıq Qarabağ münaqişəsi" danışıqlar yolu ilə həll edilir.

(səh.5)



## Ermənistan itkilərinin sayını açıqladı

### 207 hərbçi ölüb, 293 nəfər yaralanıb

**Azərbaycanla sərhəddə toqquşmalar nəticəsində Ermənistan silahlı qüvvələrinin 207 hərbçisi ölüb, 2 nəfər itkin düşüb, yaralıların sayı isə 293 nəfərdir.**

"Report" "Aysor"a istinadən xəbər verir ki, bu barədə Ermənistan Təhlükəsizlik Şurasının bəyanatında bildirilib.

Sentyabrın 19-da Ermənistanın Baş naziri Nikol Paşinyanın rəhbərliyi ilə Təhlükəsizlik Şurasının toplantısı keçirilib.

Şurada bəyanat qəbul olunub. Bildirilib ki, Ermənistanın sentyabrın 12-13-də Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı təxribat nəticəsində Ermənistanın 207 hərbçisi ölüb. Bundan başqa, 293 nəfər yaralanıb, 20 hərbçi isə əsir düşüb.

## Vəfat edən olmayıb

### Daha 70 nəfər koronavirusa yoluxub



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 19.09.2022 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 819 588 | Yeni yoluxanların sayı | 70 |
| Ümumi sağalanların sayı | 808 050 | Yeni sağalanların sayı | 83 |
| Aktiv xəstə sayı | 1 652 | Bugünkü test sayı | 1 788 |
| Ümumi test sayı | 7 217 551 | Bugünkü ölüm sayı | 0 |
| Ümumi ölüm sayı | 9 886 | | |

Koronavirus İnformasiya Portalı koronavirusinfoaz KoronaVirus informasiya portalı KoronaVirus info

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 70 yeni yoluxma faktı qeydə alınıb, 83 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 819 588 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 808 050 nəfər müalicə olunaraq sağalıb, 9 886 nəfər vəfat edib, aktiv xəstə sayı 1 652 nəfərdir.

## Göyçayda maşın hasara çırpılıb

### 13 yaşlı məktəbli və sürücü ölüb



**Göyçay rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**

Hadisə dünən saat 18:00 radələrində Göyçay-Ucar yolunda, Göyçayın Xəlitli kəndi ərazisində qeydə alınıb. 23-BN-169 dövlət nömrə nişanlı, "VAZ 2106" markalı minik avtomobili yoldan çıxaraq hasara çırpılıb. Hadisə zamanı iki nəfər dünyasını dəyişib. Onların adları məlum olub.

APA-nın yerli bürosunun xəbərinə görə, dünən saat 18:00 radələrində Xəlitli kənd sakini, Elton Qasımovun idarə etdiyi 23-BN-169 dövlət nömrə nişanlı, "VAZ 2106" markalı minik avtomobili Göyçay-Ucar yolunda idarəetmədən çıxaraq hasara çırpılıb. Hadisə nəticəsində sürücü və mağazaya getmək üçün yolda avtomobili saxladaraq oturan sərnişini, Xəlitli kənd sakini, 2009-cu il təvəllüdlü məktəbli Murad İbrahimov aldıqları ağır xəsarətlər səbəbindən ölüblər.



## "Qiymət artımları obyektiv deyil"

Vahid Əhmədov: "Ərzaq məhsullarına tətbiq edilən ƏDV-ni aradan götürməklə bahalaşmanın qarşısını almaq olar"

(səh.2)

## "Zəif Ermənistanı ayağa qaldırmaq zaman məsələsidir"

Ərəstun Oruclu: "Pelosi qısa zamanda İrəvana səfər edən yeganə yüksək ABŞ rəsmisi sayılmır"

(səh.4)



# Nyu - Yorkda üçtərəfli görüş

## Blinken, Bayramov və Mirzoyan bir araya gəlir



**ABŞ, Azərbaycan və Ermənistan xarici siyasət idarələrinin rəhbərləri Ceyhun Bayramov, Ararat Mirzoyan və Entoni Blinken arasında üçtərəfli görüş olacaq.**

Bu barədə Ermənistan XİN mətbuat katibi Vaan Unanyan məlumat verib.

Xatırladaq ki, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti BMT Baş Assambleyasının 77-ci sessiyasında iştirak etmək üçün ABŞ-ın Nyu-York şəhərinə yola düşüb.

Burada 12-14 sentyabr 2022-ci il tarixində Ermənistan-Azərbaycan sərhəddində baş verən silahlı toqquşma və onun nəticələri müzakirə ediləcək.

Sentyabrın 13-də ABŞ-ın Cənubi Qafqaz üzrə danışıqlar üzrə xüsusi nümayəndəsi Filip Riker Bakıya səfər edib. Bundan əvvəl, sentyabrın 8-də o, İrəvana getmişdi.

Sentyabrı 18-də isə ABŞ dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng vurub.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov XİN başçısının ABŞ səfərindən "Şərq"ə danışarkən bildirib ki, Ermənistan-Azərbayacan dövlət sərhədində baş verən proseslərin və ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri zamanı yaşanan gərginliyin fonunda C.Bayramovun ABŞ-a getməsi çox önəmlidir:**

"Çünki hazırda mövcud vəziyyəti BMT tribunasından çatdırmaq lazımdır. Dünya ictimaiyyəti bunu bizim dilimizdən tam ətraflı şəkildə eşitməlidir. Uzun illər ərzində dünya ictimaiyyəti belə başa düşürdü ki, Ermənistan-Azərbaycan münaqişəsində ermənilər məzlumdur, bizsə onları əzirik.

Amma artıq dünya bununla bağlı bir çox həqiqətləri bilir. İndi detallı şəkildə onlara əsl həqiqətləri çatdırmalıyıq. Bundan sonra, bəlkə, bəzi dövlətlər Azərbaycanın nə dərəcə haqlı olduğunu anlayar.

Eyni zamanda Pelosinin Ermənistana səfəri zamanı ölkəmizə qarşı səsləndirdiyi əsassız ittihamlara da BMT tribunasından etirazımızı bildirə bilərik. Belə olduğu halda ABŞ özünü hər nə qədər hegemon dövlət adlandırsa da, digər dünya dövlətləri tərəfindən müəyyən mənada qınanacaq.

Bu da onun özünə çəki-düzən verməsində faydalı olacaq. Düşünürəm ki, C.Bayramovun ABŞ səfəri Azərbaycanın regionla bağlı bir sıra nüanslara diqqət çəkməsi üçün olduqca önəmlidir".

**Günəş Mərd**



# Ermənistanın törətdiyi təxribatlar sülh prosesinə mane olmaq məqsədi daşıyır

## Prezident İlham Əliyev Küveytin ölkəmizə yeni təyin olunan səfirini məlumatlandırıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Abdullah Mohamed Abdullah Almauidinin etimadnaməsini qəbul edib.**

Səfir Abdullah Mohamed Abdullah Almauidi etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı səfirin diplomatik fəaliyyəti dövründə əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan-Küveyt münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev Küveytə səfərini məmnunluqla xatırladı, siyasi əlaqələrlə yanaşı, iqtisadiyyat, energetika və digər sahələrdə də əməkdaşlığın inkişafı üçün yaxşı imkanların olduğunu qeyd etdi. Biznes dairələri arasında münasibətlərin yaradılmasının və qarşılıqlı səfərlərin təşkil olunmasının ticarət dövriyyəsinin artırılmasına xidmət edəcəyini vurğulayan Prezident İlham Əliyev pandemiyadan əvvəl Azərbaycana çoxsaylı küveytli turistin səfər etdiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı bu rəqəmin daha da artacağına əminliyini bildirdi.

Azərbaycanın və Küveytin beynəlxalq təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, OPEC+ çərçivəsində əməkdaşlığının vacibliyini qeyd edən Prezident İlham Əliyev işğal dövründə Küveytin Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın həmişə İslam həmrəyliyinin gücləndirilməsinə mühüm töhfələr verdiyini qeyd etdi.

Prezident İlham Əliyev Ermənistanın işğal dövründə ərazilərimizdə vandalizm aktları törətdiyini vurğulayaraq, 67 məsciddən 65-nin dağıdıldığını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın işğaldan azad olunan ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirdiyini, bu prosesdə Küveyt şirkətlərinin də iştirakının mümkünlüyünü vurğuladı.

Azərbaycan Prezidenti müharibənin başa çatmasından iki ilə yaxın müddət ötməsinə baxmayaraq, Ermənistan tərəfindən təxribatların davam etdirildiyini dedi. Prezident İlham Əliyev Ermənistanın sərhəddə törətdiyi genişmiqyaslı təxribatın sülh prosesinə mane olmaq məqsədi daşıdığını qeyd etdi.

Səfir Abdullah Mohamed Abdullah Almauidi Küveyt Dövlətinin Əmiri Nəvaf əl-Əhməd əl-Cabir əl-Sabahın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveyt Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

Səfir dövlətlərarası əlaqələrimizin yüksək səviyyəsini vurğulayaraq, ölkələrimiz arasında tarixi və ənənəvi dostluq münasibətlərinin olduğunu qeyd etdi. Abdullah Mohamed Abdullah Almauidi ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsinin vacibliyini bildirdi. Diplomat ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini vurğuladı, ikitərəfli əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi.

Prezident İlham Əliyev dünən həmçinin Macarıstanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Tormanın etimadnaməsini də qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Macarıstan arasında çox yaxşı siyasi əlaqələrin olduğunu, ölkələrimizin iqtisadiyyat, ticarət, enerji və digər sahələrdə sıx əməkdaşlıq etdiyini bildirdi. Prezident İlham Əliyev Macarıstanın Avropa İttifaqında Azərbaycanın ən vacib tərəfdaşlarından biri olduğunu qeyd etdi və səfirə fəaliyyətində uğurlar arzuladı.

# Sahibə Qafarova Kraliçanın vida mərasimində iştirak edib



**Milli Məclisin sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Kraliçasının vida mərasimində iştirak edib**

Milli Məclisdən "Şərq"ə verilən məlumata görə, S.Qafarova Böyük Britaniya və Şimali İrlandiya Kraliçası Ülyahəzrət II Elizabetin vida mərasimində iştirak etmək üçün bu ölkənin paytaxtı Londonda səfərdədir.

Səfər çərçivəsində parlamentin sədri Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlzın adından təşkil olunan rəsmi qəbulda iştirak edib.

Sentyabrın 19-da Milli Məclisin sədri Sahibə Qafarova Kraliça Ülyahəzrət II Elizabetin Vestminster Abbatlığında keçirilən vida mərasiminə qatılıb. Vida mərasimində dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət başçıları, parlament təmsilçiləri, görkəmli siyasi liderlər, ictimai xadimlər və Kral ailəsinin üzvləri iştirak ediblər.

Vida mərasimindən sonra Kraliçanın cənazəsi Vellinqton Tağına daşınacaq daha sonra isə Vindzord şəhərinə aparılacaq Kraliça II Elizabet, əri Şahzadə Filipin yanında torpağa tapşırılacaq.

**Aygün**



# Azərbaycanlılar Praqada Ermənistan əleyhinə piket keçirib

**Çex Respublikasında yaşayan Azərbaycan icması Praqa şəhərində icazəli piket keçirib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən "Şərq"ə verilən məlumata görə, Krizovnicke namesti meydanında baş tutan aksiyada soydaşlarımız ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz edib, mədəni irsimizin dağıdılmasına, beynəlxalq təşkilatların ermənilərin Azərbaycan torpaqlarındakı vandalizm aktlarına səssiz qalmasına, yerli ictimaiyyətin diqqətini bölgədə sülhə mane olan amillərə cəlb ediblər.

Piket zamanı Ermənistanın son təxribatı nəticəsində həlak olan hərbçilərimizin siyahısı, "Ermənistanın təcavüzünü dayandırın!", "Ermənistanın terroruna son qoyulsun!", "UNESCO, İrəvandakı Azərbaycan irsini qoru!", "Erməni vandalizmini dayandırın!" kimi şüarlar nümayiş etdirilib.

Aksiya diaspor fəalı Fərid Əmirəliyevin təşkilatçılığı ilə keçirilib.

# "Milli Məclis çap mediası subyektinin təsisçisi ola bilər"

## MEDİA: "Azərbaycan" qəzetinin fəaliyyətini davam etdirməsinə hüquqi əsas var"




**"Azərbaycan" qəzetinin fəaliyyətini davam etdirməsinin hüquqi əsası "Media haqqında" qanunun 59.2-ci maddəsidir. Həmin maddəyə uyğun olaraq Milli Məclis çap mediası subyektinin təsisçisi ola bilər".**

Bu barədə "Report"un sorğusuna cavab olaraq Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyindən (MEDİA) bildiriblər.

"Media haqqında" qanunun 59.2-ci maddəsində qeyd olunub ki, siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən orqanlar (qurumlar), Milli Məclis, Konstitusiya Məhkəməsi və Ali Məhkəmə istisna olmaqla, digər dövlət orqanları (qurumları) çap mediası subyektinin təsisçisi ola bilməzlər.

*Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli fərmanı ilə ölkədə çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının (qurumlarının) siyahısı təsdiq edilib. Siyahıya Prezidentin İşlər İdarəsi, Elm və Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Azərbaycan Milli Elmlər Akademiyası və Dövlət İmtahan Mərkəzidir.*

# "Qiymət artımları obyektiv deyil"

## Vahid Əhmədov: "Ərzaq məhsullarına tətbiq edilən ƏDV-ni aradan götürməklə bahalaşmanın qarşısını almaq olar"

**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda komitənin üzvləri və bir sıra rəsmi şəxslər iştirak ediblər. Millət vəkili Vahid Əhmədov qiymətlərin bahalaşmasından və işsizlikdən danışıb. Deputat bildirib ki, işsizlik məsələsi problem olaraq kifayət qədər böyükdür:**

"Təklif edirəm ki, İqtisadiyyat Nazirliyi, eləcə də aidiyyəti qurumlarla bununla bağlı görüş keçirək. İkinci böyük problem inflyasiyadır. Bunun üçün biz ƏDV-ni diferensiallaşdırmalıyıq. Biz hər məhsula 18 faiz ƏDV tətbiq edə bilmərik. Ərzaq məhsullarında bu tələbi dəyişmək qiymətlərin qismən azalmasına səbəb ola bilər. Hökumət ərzaq məhsullarına 0 faiz gömrük rüsumu tətbiq etməlidir. Çünki ərzaq məhsullarının qiyməti yüksəkdir, əhalinin gəlirləri bunu ödəmir. Qiymət artımları bu gün heç də obyektiv deyil. Buna nəzarət edilməlidir. 8 ayın yekunları onu göstərir ki, biz ilin axırına inflyasiyanı kifayət qədər azalda bilərik. Digər məsələ Rəqabət Məcəlləsi ilə bağlıdır. Hökumət üzvləri ilə danışıb bu layihənin payız sessiyasında qəbul edilməsi barədə razılıq əldə etməliyik. Hazırkı şəraitdə bu məcəllənin qəbul edilməsi çox vacibdir".

Komitə sədri Tahir Mirkişili cavabında qeyd edib ki, işsizliyin həlli yalnız dövlət üzərində olmamalıdır: "Sizin bu təklifi yüksək dəyərləndirirəm və bu görüşə bir sıra özəl sektor, kiçik assosiasiyaları da dəvət edə bilərik. ƏDV ilə bağlı Dövlət Vergi Xidməti ilə müzakirələr apara bilərik. Amma bunun qiymət artımına necə təsir edəcəyini tam bilmirəm. Çünki Türkiyədə ərzaq məhsulları üzərindən əlavə dəyər vergisinin götürülməsi qiymət artımına təsir etmədi, əksinə, dövlət həmin vergini də itirdi".



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli deyib ki, real sektorun inkişafı üçün Bank Məcəlləsinin qəbul edilməsi vacibdir. Deputat bildirib ki, real sektorun mütləq əksəriyyəti banklarla bağlıdır:** "Banklarda faiz dərəcələrinin aşağı salınması, real sektorun inkişafına şərait yaratması üçün Bank Məcəlləsinin qəbul edilməsini vacib hesab edirik. Üçüncü istiqamət isə Büdcə Məcəlləsinin qəbul edilməsi ilə bağlıdır. Üçüncü blok məsələ isə sosial məsələlərin tənzimlənməsi ilə bağlıdır. Bu qanunların bir hissəsi Əmək və sosial siyasət komitəsinə, bir hissəsi isə bizə aiddir. Biz bir neçə qanuna dəyişiklik hazırlamışıq. Yaşayış minimumu, minimum əməkhaqqı və ehtiyac meyarı ilə bağlı hər zaman qaldırdığımız məsələ var idi. Sənədlərdə yaşayış minimumu anlayışı havada asılı vəziyyətdədir. Bundan başqa Rəqabət Məcəlləsinin də qəbul edilməsini çox vacib hesab edirik".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə xarici ticarəti tənzimləyən qanun qəbul edilməsini təklif edib: "Xarici ticarətlə bağlı yeni qanun layihəsinin qəbuluna ehtiyac var". Komitə sədri bildirib ki, xarici ticarəti tənzimləyən ayrıca qanun yoxdur: "Payız sessiyasında bu layihə ilə bağlı da işlər görülə bilər".

**İsmayıl**

# Vaşinqton uduzdu

## Atəşi ABŞ yox, Rusiya dayandırdı




### Simonyanın yalan danışdığı gün kimi aydındır

**Ermənistan parlamentinin sədri Alen Simonyan sərhəddə baş verən insidentin qarşısının alınmasına və atəşkəsin bərpasına görə ABŞ-a təşəkkür edib. Simonyan bu sözləri ABŞ Nümayəndələr Palatasının rəhbəri Nensi Pelosi ilə birgə mətbuat konfransında səsləndirib:**

"Biz Vaşinqtona sülhün əldə olunmasındakı vasitəçiliyinə görə təşəkkür edirik. Həmçinin, Amerika siyasətçilərinə Azərbaycanın ittiham etdiklərinə görə minnətdarıq". Simonyan Pelosini Azərbaycana qarşı "dəqiq sanksiyalar" tətbiq etməyə çağırıb. Qeyd edək ki, BMT TŞ-nin olayla bağlı iclasında çıxış edən Rusiya nümayəndəsi Kremlin birbaşa vasitəçiliyi ilə atəşkəsin əldə olunduğunu bildirmişdi. Atəşkəsə nail olduğuna görə isə ABŞ nümayəndəsi də daxil olmaqla, TŞ üzv ölkələri Rusiyaya təşəkkür etmişdilər.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, atəşkəslə bağlı hərbi-siyasi və iqtisadi müşküllər girdabında olan Ermənistan fərqli tezislər ortaya buraxır. Analitik qeyd edib ki, Ermənistan-Azərbaycan hərbi eskalasiyası başlayanda Nikol Paşinyan telefonlardan asılı qalaraq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət edib atəşin dayandırılmasına nail olmaq istəyirdi:** "İrəvanın məqsədlər həlqəsi KTMT vasitəsilə zəncir formalaşdırmaq, onu regiona gətirmək hiylələri ilə zəngin idi. Lakin blok qoşun göndərmək üçün əsas olmadığını dilə gətirdi. Ancaq qurum rəhbəri Rusiya döyüşlərin getdiyi zamanda atəşkəs üçün təşəbbüslərdə önə çıxmağı bacarmışdı. Məhz Rusiyanın vasitəçiliyi ilə ilkin razılaşma əldə edildi, lakin Ermənistan buna əməl etmədi və Azərbaycanın bərqərar olduğu mövqeləri intensiv artilleriya atəşinə məruz qoydu. Hərbi əməliyyatın ikinci fazasında da Azərbaycan adekvat tədbirlər görərək Ermənistan silahlı bölmələrinin digər atəş nöqtələrini də susdurmağı bacardı. Vəziyyətin olduqca kritik olduğunu görən Ermənistan hərbi-siyasi komandanlığı məcbur qalıb atəşkəsə riayət etməli oldu. KTMT-dən rədd cavabı aldıqdan sonra isə İrəvan ABŞ tərəfə yıxılmağa başladı. Simonyanın yalan danışdığı gün kimi aydındır. Təbii ki, ABŞ atəş səslərinin dayandırılmasına çalışırdı, onun belə təşəbbüslərini gözardı etmək sadəlövhlük olardı. Amma ABŞ-ın bu məntiqi Azərbaycanın tələblərinə cavab vermirdi. Qısası, bu məsələdə Vaşinqton Moskvaya uduzdu. Ağ Ev Rusiya ilə rəqabətin pikə çatdığı zamanda Cənubi Qafqazda nüfuz itkisinə məruz qaldı. Bu itkilərini Ermənistana siyasi investisiya qoymaqla kompensasiya etmək istəyir".

*Ekspertə görə, ABŞ Qərb sisteminin bir orqanı olan Avropa İttifaqının Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsindəki təşəbbüslərini də zədələyir:* "Avropa İttifaqı ABŞ-Rusiya rəqabətinin Cənubi Qafqazda kəskinləşməsində tarazlayıcı mövqe rolunda idi. Azərbaycan-Ermənistan münasibətlərinin sülhlə yekunlaşmasına töhfələr verirdi. İttifaqın bu duruşu Rusiyanı o qədər də narahat etmirdi. Lakin sərhəddəki toqquşmalar fonunda ABŞ-ın sərgilədiyi birtərəfli mövqe Avropa Birliyi üçün də başağrısıdır".

**İsmayıl Qocayev**

---

**Rusiya Dövlət Dumasının deputatı Vitali Milonov teleqram kanalında Azərbaycana qarşı hədyanlar səsləndirib. Milonov ölkəmizi "təcavüzkar" adlandırıb və Ermənistana "hücum etməklə" suçlayıb:**

"Müttəfiq Ermənistanımıza qarşı "təcavüz" dərhal dayandırılmalı, hərbi əməliyyatlar zamanı "qanunsuz zəbt olunmuş" ərazilər azad edilməlidir". Deputat Vitali Milonova elə Rusiyanın özündən tutarlı cavablar gəlib. Rusiyanın güc strukturlarına məxsus "Siloviki" teleqram kanalında Milonova əsaslı və sərt reaksiya verilib: "Belə görünür ki, Dövlət Dumasının deputatı Vitali Milonov Azərbaycanı Rusiyanın müttəfiqləri siyahısından çıxarmaq qərarına gəlib. Əlbəttə, Milonov tanınmış siyasi hay-küyçüdür, lakin bu post bütün sərhədləri keçib. Birincisi, Azərbaycan Rusiyanın əsl müttəfiqidir. Müttəfiqlik sənədi fevralın 21-də Ukraynada hərbi əməliyyatlardan əvvəl imzalanıb. Siyasətdə belə sənədlərin imzalanması çox şeydən danışan və hər iki tərəfə öhdəliklər qoyan ciddi addımdır". Məqalədə qeyd olunub ki, Milonov kimi deputatlar belə bəyanatlarla Rusiyanın azsaylı müttəfiqlərini Moskvadan uzaqlaşdırırlar: "Ölkəsinin mənafeyini düşünən insan heç vaxt ikitərəfli münasibətlərə mənfi təsir göstərəcək bəyanatlar səsləndirməz. Bunu ancaq başqa ölkənin maraqlarına xidmət edənlər deyə bilər".



# Vitali Milonov tanınmış siyasi hay-küyçüdür

## "Görünür, onlara parlamentdən aldıqları pul kifayət etmir"

**Rusiyalı politoloq Sergey Markov da Milonovu sərt tənqid edib. O bildirib ki, Milonov pul hərisliyi və yenidən seçilmək üçün belə edib**: "Dövlət Dumasının deputatı Vitali Milonovun Azərbaycanın ünvanına səsləndirdiyi təhqiramiz bəyanat Rusiya dövlətinin mövqeyi kimi qəbul olunmamalıdır. Bu cür provokasiyalı bəyanatların arxasında öz seçki kampaniyası üçün maliyyə mənbələrinin tapılması istəyi dayanır. Onun məqsədi öz seçki kampaniyası üçün maliyyə mənbələri tapmaqdır. O, ermənilərin və ksenofob əhval-ruhiyyəli insanların dəstəyini qazanmağa çalışır. Ermənipərəst mövqedən çıxış edərək qazanmaq imkanı bir çoxlarını cəlb edir. Rusiya daxilində azərbaycanlıların düşməni və ermənilərin dostu olmaq çox sərfəlidir. Ermənilərin düşmən kimi qəbul etdiyi azərbaycanlıların dostu olmaq isə əksinə, təhlükəlidir".

**Politoloq İlqar Vəlizadə də deyib ki, Vitali Milonov və onun kimiləri əslində anti-Azərbaycan yox, anti-Rusiya siyasəti aparır, dövlət maraqlarına qarşı çıxırlar. Ekspertə görə, Milonov kimiləri üçün ağa qara demək normaldır:** "Təəssüf ki, təbliğat uzun müddətdir davam edir. Rusiya ideoloqları Azərbaycanı Qərbin, Qərbin təbliğatçıları isə bizi Kremlin maraqlarına xidmət etməkdə ittiham edirlər. Onlar bundan təsir vasitəsi kimi istifadə etməyə çalışırlar. Amma belə bəyanatlara ciddi yanaşmaq lazım deyil. Görünür, onlara parlamentdən aldıqları pul kifayət etmir. Ona görə də saxta təbliğat aparırlar. Ancaq daxili ictimai rəyi çaşdırmaqla yanaşı, həm də ikitərəfli münasibətlərə zərbə vururlar". Analitik vurğulayıb ki, Milonov gözünü açmalı və ikitərəfli əlaqələri, regional layihələri, Özbəkistanın Səmərqənd şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) nəticələrini yaxşı nəzərdən keçirməlidir".

**İsmayıl**

---




# Əlbəttə, Fransaya ayıb olsun!

"Amma əgər təxribatlar baş verirsə, təhlükələrlə üzləşiriksə, o zaman mühafizə işinə diqqət yetirmək lazımdır"

**Fransada ermənilər Azərbaycanın bu ölkədəki səfirliyinə basqın ediblər. Hüquq-mühafizə orqanları isə onlara müdaxilə etməyib. Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev tviter hesabından Paros hökumətinə etirazını bildirib:**

"Fransanın erməni fanatları Azərbaycanın səfirliyinə basqın edirlər. Amma gəlin erməni barbarlarını bir kənara qoyaq cənab Emmanuel Makron, səfirlikləri qorumayan və təhlükəsizliyimizlə bağlı əsaslı tələblərimizə məhəl qoymayan Fransaya ayıb olsun!". Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva deyib ki, Fransadakı səfirliyə hücum ölkəmizin xaricdəki diplomatik nümayəndəliklərinin erməni icmasının radikal nümayəndələrinin hücumuna məruz qaldığı ilk hal deyil. O bildirib ki, bununla daha öncə də üzləşmişik və təəssüf ki, son günlər bu cür hərəkətlərin şahidi oluruq: "Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən açıqlamalar verilib, məsələnin ciddi narahatlıq doğurduğu bildirilib və bu kimi hadisələrin baş verdiyi ölkələrə müvafiq ismarışlar göndərilib. Beynəlxalq hüquqa, daha dəqiq desək, 1961-ci il tarixli Vyana Konvensiyasına görə, diplomatların və diplomatik nümayəndəliyin təhlükəsizliyinin təmin edilməsi öhdəliyi onların yerləşdiyi ölkənin üzərinə düşür. Dövlətləri həmin Konvensiyanı lazımi şəkildə icra etməyə çağırmışıq". Bundan sonra Fransanın Azərbaycandakı səfiri Zakari Qros Xarici İşlər Nazirliyinə çağırılıb və radikal erməni qrupları tərəfindən törədilən hücumla bağlı XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib.

Xatırladaq ki, ermənilər Livandakı Azərbaycan səfirliyinə də hücum çəkiblər. O cümlədən Gürcüstanda yaşayan ermənilər də qonşu ölkədəki diplomatik korpusumuzu hədəf alıblar. Ekspertlərin fikrincə, Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin binalarına qarşı erməni icmaları tərəfindən təşkil edilən hücumlar beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə nəzarətə götürülməli, vandalizm və terror şüarları altında dinc insanlara qarşı bu cür zərərli halların qarşısı dərhal alınmalıdır. Ermənilərin bu hərəkətlərinə qarşı sərt addımlar atılmadığından onların cəzasızlıq mühitində vəhşiliyi daha da artır və aqressiya üçün yeni zəminlər yaranır. Ona görə də müvafiq dövlətlərin aidiyyətli qurumları və beynəlxalq icmalardan erməni təxribatların qarşısının alınması üçün qətiyyətli tədbirlər görəcəyini gözləyirik.





**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Londonda səfirliyimizə qarşı baş vermiş təxribatdan sonra ciddi nəticə çıxartmalı və xarici ölkələrdəki diplomatik korpuslarımızın müdafiəsini gücləndirməli idik. Partiya rəsmisi qeyd edib ki, prosesləri nəzərə alaraq, səfirliklərimizin xüsusi mühafizəsi təşkil olunmalı idi:** "Təəssüf ki, baş verən proseslərdən lazımi nəticəni çıxartmırıq. Qısa müddətdə üç ölkədə - Livan, Fransa və Gürcüstanda erməni təxribatları ilə üzləşdik. Başqa ölkələrdə baş verməyəcəyinə heç kim qarantiya vermir. Fransadakı səfirimiz açıqlama yayır ki, "hökumət qurumları, hüquq-mühafizə orqanları onları qorumur, ayıb olsun". Əlbəttə, Fransaya ayıb olsun, amma yaxşı olardı ki, səfirimiz özəl mühafizə şirkətləri ilə danışıb səfirliyin təhlükəsizliyini gücləndirərdi. Azərbaycandakı ABŞ, Rusiya və digər Avropa ölkələrinin səfirliklərinin daxilində xüsusi mühafizə xidmətləri var. Niyə biz bunu tətbiq etməyək? Əgər təxribatlar baş verirsə, təhlükələrlə üzləşiriksə, o zaman mühafizə işinə diqqət yetirmək lazımdır. Çünki həmin ölkələrdəki səfirliklərimizin ərazisi Azərbaycan bölgəsi sayılır. Səfirliklərimizə hücum birbaşa Azərbaycana hücum deməkdir. Xarici İşlər Nazirliyimiz və diasporamız bu məsələdə daha fəal və həssas olmalıdır. Ən azından erməni lobbisinin güclü olduğu ölkələrdə Azərbaycanın diplomatik korpusları daha güclü qorunmalıdır. Həmin ölkələrin hüquq-mühafizə orqanları etmirsə, bunu özümüz təşkil etməliyik".

**Millət vəkili Asim Mollazadə məsələ ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, Fransada Azərbaycan səfirliyinə qarşı cinayət törədilib:** "Fransa hüquq-mühafizə orqanları bu cinayətin qarşısını almadığı üçün bütün beynəlxalq hüquq normalarını pozub. Fransa hökuməti məsələdə birbaşa məsuliyyət daşıyır.

Onlar Azərbaycan hüquq-mühafizə orqanları ilə birgə həmin cinayətkarları tapıb məsuliyyətə cəlb etməlidir. Rəsmi Paris Azərbaycan səfirliyini belə bir təhlükə qarşısında qoyduğu üçün Azərbaycandan üz istəməlidir".

**İsmayıl Qocayev**

---

# Toqquşmalar indiki vəziyyətdə Rusiyaya sərf etmir

## Qırğızıstan və Tacikistan arasında gərginlik daha çox ABŞ və Qərbin maraqlarına cavab verir

**14 sentyabrdan Tacikistan-Qırğızıstan sərhədində yaranmış gərginlik sentyabrın 18-nə qədər davam edib. Sentyabrın 18-i isə sərhəddə atəşkəs rejiminə dair razılaşma pozulmayıb. Bu barədə Qırğızıstan Dövlət Təhlükəsizlik Komitəsi məlumat yayıb:**

"Hazırda tərəflərin nümayəndələri dövlət sərhədində işlərini davam etdirir, əldə olunmuş razılaşmalara ciddi əməl olunması üçün müvafiq işlər aparırlar".



**Qırğızıstan və Tacikistan arasındakı mövcud vəziyyəti "Şərq"ə şərh edən analitik Elçin Xalidbəyli bildirib ki, tərəflər arasındakı hazırkı silahlı toqquşmalar keçmiş SSRİ-nin dağılması nəticəsində ortaya çıxan geopolitik problemlərin sırasına daxildir:**

"Bu iki qonşu dövlət arasında mövcud olan sərhədlərin dəqiqləşdirilməsi problemi hələ də həll edilməyib. Ona görə də vaxtaşırı Qırğızıstan və Tacikistan arasında silahlı insidentlər baş verir.

Təbii ki, iki dövlət arasında silahlı qarşıdurma müəyyən mənada Rusiyanın maraqlarına da cavab verir. Çünki hər iki ölkənin Rusiyadan asılılığı öz aktuallığını qoruyub saxlayır. Onlardan hər hansı biri Rusiyanın maraq çərçivəsindən kənara çıxsa, Kreml dərhal ərazi ziddiyyətlərini qabardacaq. Ancaq burada bir önəmli məqam da var.

Qırğızıstan və Tacikistan hər ikisi müsəlman ölkəsi olmaqla yanaşı, həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Yəni bu sərhəd toqquşmaları əslində, həm də Rusiyanın patronajlığı altında olan KTMT-nın nüfuzuna sarsıdıcı zərbə xarakteri daşıyır.

Hər halda tərkibində yer alan iki dövlətin arasında düşmənçiliyin davam etdiyi bir hərbi-siyasi qurumu geopolitik proseslərdə heç kim ciddiyə almaz. Bütün bunlar onu göstərir ki, Qırğızıstan və Tacikistan arasında silahlı toqquşmalar indiki situasiyada daha çox ABŞ və Qərbin maraqlarına cavab vermiş kimi görünür. Yəqin ki, Qərb siyasi dairələri mövcud ziddiyyətdən istifadə etməyə çalışacaqlar. Ümumiyyətlə, Qırğızıstan və Tacikistan arasında sərhədlər dəqiqləşdirilməzsə, bu iki dövlətin silahlı toqquşmaları hələ uzun müddət davam edə bilər".

**Günəş Mərd**

---

# Böyük imkanlar var

## Azərbaycan Zəngəzur dəhlizini açmaqda israrlıdır




**"Sentyabr əməliyyatlarının miqyası və nəticələri rəsmi olaraq açıqlanmır. Lakin bu hərbi toqquşma Azərbaycanın Zəngəzur dəhlizini açmaq tələbində nə qədər israrlı olduğunu göstərir".**

*Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov Zəngəzur dəhlizinin nə zaman açılacağına münasibət bildirərkən deyib.*

Analitik bildirib ki, sərhədlərin güc tətbiqi ilə delimitasiya prosesinə salınmasının örnəyini Azərbaycan ortaya qoydu və Zəngəzur dəhlizi həmin məntiqlə aktuallıq qazanır: "Dəhliz Horadiz-Ağbənd dəmir yolundan başlayır və Ermənistan ərazisindən keçərək Naxçıvana qədər çəkilməlidir. Azərbaycan Naxçıvandan da dəhlizə yol açmaq üçün hərbi tədbirlər planını masada saxlayır. Hadisələrin dəhlizə nisbətdəki meqaməntiqi bundan ibarətdir. Ancaq əməliyyatların dairəsi tam açıqlanmadığından yeni alınan hansı yüksəkliyin, hansı ərazinin konkret olaraq dəhliz üçün böyük imkanlar açdığını söyləyə bilmərəm".

**Nihat Müzəffər**

# Ərdoğan namizəddir!

## İqtidar, müxalifət bütün kartlarını açmayıb



## Türkiyədə keçiriləcək prezident seçkilərinin nəticələri barədə danışmaq hələ tezdir

İsmayıl Qocayev

**Türkiyədə prezident seçkiləri 2023-cü ilin iyun ayının 18-də keçiriləcək. Türkiyədə gələn il keçiriləcək seçkilər təkcə qardaş ölkədə deyil, həm də regionda və dünyada diqqətlə izlənilir. Rusiya-Ukrayna müharibəsində tərəflər arasında barışcıl missiyanı öz üzərinə götürən, qlobal taxıl probleminin həlli istiqamətində ciddi səylər göstərən Türkiyənin yeni liderinin kim olacağı maraq doğurur.**

Məlumat üçün bildirək ki, Türkiyədə prezident və parlament seçkiləri yerli qanunlara görə eyni gündə keçirilir. Seçki mübarizəsi hakim AKP və tərəfdaşı MHP-nin təşkil etdiyi ”Cümhur İttifaqı” ilə 6 müxalif partiyanın təmsil olunduğu ”Millət İttifaqı” arasında gedəcək. Hakim Ədalət və İnkişaf Partiyası (AKP) Prezident Rəcəb Tayyib Ərdoğanın 2023-cü ildə yenidən namizəd olacağını elan edib. Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) lideri Dövlət Baxçalı da 2023-cü ildə keçiriləcək prezident seçkilərində hazırkı dövlət başçısı Ərdoğanı dəstəkləyəcəyini bildirib. Altı partiyadan ibarət müxalifət bloku hələ ki öz vahid namizədini açıqlamayıb. Qeyd edək ki, müxalifət bundan əvvəl bildirmişdi ki, Türkiyənin hazırkı prezidenti seçkilərdə iştirak edə bilməz, çünki bu, onun üçüncü müddəti olacaq. Ədliyyə Nazirliyinin rəhbəri isə dəfələrlə bəyan edib ki, 2018-ci ildə Türkiyədə parlament idarəetmə formasından prezident üsul-idarəsinə keçidindən sonra qarşıdan gələn prezident seçkiləri Ərdoğan üçün ikinci seçki olacaq.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli ”Şərq”ə deyib ki, Türkiyədə 2023-cü ilin iyununda keçiriləcək prezident seçkilərində ”Cümhur İttifaqı”nın vahid namizədi bəllidir. Partiya təmsilçisi vurğulayıb ki, indi gözlər müxalifətə yönəlib:** ”6 partiyanın birləşdiyi ”Millət ittifaqı”ndan prezidentliyə vahid namizəd kim olacaq? ”Millət ittifaqı”nda əksər üzvlər Mansur Yavaş, Əkrəm İmamoğlunun və Kamal Kılıçdaroğlunun namizədliklərinə müsbət baxırlar. Seçki prosesinin fonunda əsas müzakirələrdən biri də seçki kampaniyası dövründə Türkiyə daxilində qarşıdurmaların yarana biləcəyi, gərginliyin olacağı ilə bağlıdır. Qardaş ölkənin Qərblə davam edən gərgin münasibətləri fonunda daxildə ciddi təhlükələr yaşaya biləcəyi barədə narahatlıqlar səsləndirilir. Qərbin hər vəchlə seçki prosesinə təsir etmək üçün hərəkətdə olacağı deyilir”.

**S.Əsədliyə görə, seçkilərin nəticələri barədə hələ danışmaq çox tezdir, çünki proseslər yeni başlayır:** ”Tərəflər hazırda bütün kartlarını açmayıblar. Ona görə konkret söz demək çətindir. İqtidarın bir qədər vəziyyəti asandır. Çünki əvvəlcədən MHP ilə ”Cümhur ittifaqı” qurub, nə etdiklərini bilirlər, namizədləri də bəllidir. Amma müxalifətə gəldikdə, burada tamam fərqli situasiya yaşanır. Tam şəkildə namizədin kim olduğu bilinmir. Müxalifət gedişlərini və namizədini düzgün müəyyənləşdirərsə, o zaman geniş müxalifət koalisiyası ikinci tur reallığını qazana bilər”.

**“ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfərinin əhəmiyyətini və mümkün nəticələrini kiçiltmək lazım deyil. Səfərin Azərbaycan-Ermənistan sərhədindəki son vəziyyətlə birbaşa əlaqəsi yoxdur. O, əvvəldən planlaşdırılıb. Amma onun təsirlərinin olmayacağını deməyə əsas verməməlidir”.**



# “Zəif Ermənistanı ayağa qaldırmaq zaman məsələsidir"

## Ərəstun Oruclu: “Pelosi qısa zamanda İrəvana səfər edən yeganə yüksək ABŞ rəsmisi sayılmır”

*Bu fikirləri ”Şərq”ə açıqlamasında politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu deyib. Onun sözlərinə görə, istər N.Pelosinin özü, istərsə də onu müşayiət edən digər Konqres nümayəndələri stabil olaraq birmənalı ermənipərəst siyasətçilərdir:* ”Onların səfərin nəticələrilə bağlı Azərbaycana qarşı müəyyən addımlar atacaqları istisna deyil.

Pelosi qısa zamanda Ermənistana səfər edən yeganə yüksək ABŞ rəsmisi sayılmır. Bir qədər əvvəl ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Börns də İrəvanda səfərdə olmuşdu.

Bu, Vaşinqtonun bölgəyə dair siyasətində Ermənistanın müəyyən yer aldığını deməyə əsas verir. Belə siyasət də öz növbəsində Azərbaycan üçün ciddi çağırışlar və risklər mənasına gələ bilər.

Çünki ABŞ kimi güclü bir ölkə üçün hətta zəif və kiçik Ermənistanı ayağa qaldırmaq yalnız zaman məsələsidir. Söhbət heç də onilliklərdən getmir. ABŞ-dan iqtisadi, siyasi və istisna deyil ki, hərbi dəstək alacağı halda İrəvan qısa zamanda bugünkündən çox fərqli statusa keçə bilər.

Bu da öz növbəsində bölgədə yeni geosiyasi şəraitin yaranmasına və bölgə ölkələri üçün yeni təhdidlərin meydana çıxmasına yol açardı. İlk növbədə də Azərbaycan üçün.

Xarici siyasət strategiyamızın mövcud reallığa uyğun olaraq müəyyənləşdirilməsi və onun həyata keçirilməsi istiqamətində effektiv addımların atılması təxirəsalınmaz vəzifəyə çevrilir”.

*Qeyd edək ki, Nensi Pelosinin səfəri Azərbaycan-Ermənistan sərhədində Ermənistanın vəziyyəti gərginləşdirdiyi dövrə təsadüf edir. N.Pelosinin səfəri sentyabrın 19-dək davam edəcək.*

*Səfər zamanı Nümayəndələr Palatasının sədri Ermənistanın Baş naziri Nikol Paşinyan, Milli Assambleyanın sədri Alen Simonyan və digər yüksək rütbəli rəsmilərlə görüşəcək.*

**Aygün Tahir**

# Qərb Paşinyanın tezliklə devrilməsinə izin verməyəcək

## Turab Rzayev: “Mən Pelosinin açıqlamalarının birbaşa Azərbaycanla əlaqəli olduğunu düşünmürəm”

**ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosi Ermənistana səfər edib. Səfər zamanı Nümayəndələr Palatasının sədri Ermənistanın Baş naziri Nikol Paşinyan, Milli Assambleyanın sədri Alen Simonyan və digər yüksək rütbəli rəsmilərlə görüşüb.**

Spiker İrəvanda keçirdiyi mətbuat konfransında qeyd edib ki, ABŞ nümayəndələrinin Ermənistana səfərdə məqsədi hərbi planda hansı əməkdaşlığın mümkünlüyünü anlamaqdır.



**Pelosinin səfərini Nikol Paşinyana dəstək kimi qiymətləndirən siyasi şərhçi Turab Rzayev ”Şərq”ə bildirib ki, bununla Qərb Rusiyanın Paşinyanı devirməsinə və çevriliş etməsinə imkan verməyəcəyini açıq şəkildə bəyan etmiş oldu:** ”Mən bu açıqlamaların birbaşa Azərbaycanla əlaqəli olduğunu düşünmürəm. Düzdür, arasında bizə aid olan məqamlar da var. Lakin Pelosinin səfərinin bizimlə bağlı olmasından daha əhəmiyyətli məqamları var. Məlum səfərlə Qərb Paşinyanı qoruyacağını bildirdi.

Bu, ABŞ-ın Ermənistan baş nazirinə göstərdiyi diqqətin aşkar nümunəsidir. Məğlubiyyətə baxmayaraq Paşinyan hakimiyyətini dəstəkləyən xalqa da açıq şəkildə rəsmi Vaşinqtonun bu kursu dəstəklədiyi mesayı ötürülümüş oldu. Rusiyanın qaz puluna möhlət vermək və digər məsələlərlə bağlı verdiyi açıqlama onun bu prosesdən qıcıqlandığını göstərir. Amerikalı spikerin səfərindəki digər məsələ isə Paşinyanın ətrafındakı qüvvələrin lobbiçilik fəaliyyətinə pullar xərcləməsidir. Ancaq istənilən halda Ermənistan baş naziri ilə erməni lobbisi arasında ciddi münasibət fərqi var. Burada ABŞ erməni lobbisinə yox, birbaşa Paşinyana dəstək verir. Digər tərəfdən Pelosinin bizə qarşı işlətdiyi ”Azərbaycan Ermənistana təcavüz edir. Buna görə də qətnamələr qəbul edilməlidir” kimi sözlər xoş deyil.

Bu məsələdə biz mövqeyimizi açıq şəkildə ifadə etməliyik. Azərbaycan Respublikasının maraqları aydın şəkildə müəyyənləşdirilməli və ABŞ-la münasibətlər bu prizmadan qurulmalıdır. Rəsmi Bakını Rusiyanın və ya Avrasiya İttifaqının bir hissəsi kimi göstərərək Amerikaya qarşı mövqeləndirmək isə doğru seçim olmayacaq”.

**Nihat Müzəffər**



# “İcra başçılarına, məmurlara qarşı açıq qərəz hiss olunur"

## Azər Allahverənov: “Dövlət bayrağının şəhid ailəsinə kim tərəfindən təqdim edilməsi önəmli deyil”

**Dövlət bayrağının şəhid valideynlərinə icra başçıları, məmurlar tərəfindən təqdim olunması, günlərdir müzakirə predmetinə çevrilib. Şəhidlərin dəfn mərasimlərindən internet resurslarda fotolar paylaşılır, hər fotoya fərqli münasibət sərgilənir.**



Bəzən vətəndaşlar dövlət bayrağımızın şəhid atasına, anasına və ya ailə üzvlərindən başqa birisinə icra başçısı, icra nümayəndələrinin təqdim etdiyini qınayır, tənqid edirlər. Tənqid hədəfi birbaşa icra başçısı və ya hansısa məmur deyil, tənqidə məruz qalan bu şəxslərin dəfnin ağır ab-havasına uyum saxlamamalarıdır. Kədərdən beli bükülmüş şəhid atasının qarşısında dayanan məmurun ütülü görünüşü, şıq görünüşü, kostyumu, qalstuku, səliqə ilə daranmış saçları ümumi mənzərəyə yad görünür və bu da insanlarda qıcıq yaradır. Əksəriyyət belə hesab edir ki, şəhid valideyninə dövlət bayrağını səngər yoldaşlarından biri, əsgər, yaxud zabit heyətindən birisi təqdim etməlidir. Bir halda ki, şəhidin cənazəsini əsgərlər çiyinlərinə alıb gətirir, dövlət bayrağını da onlar təqdim etsin. Məmurların şəhid dəfnindəki soyuq davranışı sosial şəbəkələrdə tənqid olunur, onlar haqqında ”heç olmasa, sifətlərinə kədərli ifadə versinlər”, ”adicə empatiya qurmaq bacarıqları da yoxdur, qalmışdı hələ rəhbər olsunlar”, kimi sözlər yazılır.

Məlumdur ki, empatiya - özünü başqa insanın və ya canlının yerində hiss etmə bacarığı, başqasının dərdinə şərik olma hissidir. Empatiya, eyni zamanda başqa insanın emosional halını onun mimikasından və hərəkətlərindən duyma qabiliyyətini də ehtiva edir. Yəni ”dərdin mənim dərdimdir”, demək və bunu əyani nümayiş etdirmək. İcra hakimiyyətləri nümayəndələri məhz bu empatiyanı qura bilməməkdə günahlandırılır. Halbuki, paytaxtda, bölgələrdə də rayon icra hakimiyyətləri şəhid dəfnlərinin, yas mərasimlərinin təşkilində aparıcı rola malikdir. Bəs niyə onlara qarşı antipatiya mövcuddur?

“İndiki halda biz cəmiyyət olaraq həmrəylik nümayiş etdirməliyik. Bölücülük aparmamalıyıq”

**İctimai xadim Azər Allahverənov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, bu, şəhidlərlə bağlı olduğu üçün həssas mövzudur:**

- Məsələ bundadır ki, dövlət bayrağının kim tərəfindən, necə təqdim olunmasıyla bağlı hə hansı protokol qaydası, təqdimetmə üsulu yoxdur. Problem məsələyə hansı baxış bucağından baxılmasındadır. Şəxsən mənim üçün bayrağın kim tərəfindən təqdim edilməsi önəmli deyil. Əsas, müqəddəs saydığımız dövlət bayrağının təqdim edilməsidir, yəni əsas bayraqdır! Mən də izləyirəm, görürəm, xoşagəlməz statuslar paylaşılır. Tutaq, kiminsə mimikasında kədər yoxdu, məhz o anı tutur, onu da paylaşır, tirajlayırlar. Hesab edirəm ki, bu, qərəzli yanaşmadır. Konkret hansısa icra hakimiyyəti başçısı hədəfə alınır, qınaq obyektinə çevrilir, barəsində qeyri-etik ifadələr işlədilməyə başlanır. Bu, doğru deyil və burada aşkar qərəz var. 1990-cı illəri yadımıza salaq. Şəhidlərin dəfn mərasimlərində icra başçıları çoxmu iştirak edirdi? Mənim bibim oğlu şəhid olmuşdu, icra başçısı handan-hana ”ayılıb”, üzr istəyirəm, bir dana göndərdi, atam geri qaytardı ki, ehtiyac yoxdu. Yəni biz həmin günləri də görmüşük. Getdikcə, şəhidlərin dəfniylə bağlı müəyyən qaydalar formalaşmağa başladı. İndi icra başçıları, məmurlar, millət vəkilləri də yas mərasimlərində iştirak edir.

Burada qərəz axtarmaq, kiminsə duruşunu, üzündəki hansısa ifadəni əldə bayraq edib tənqidə məruz qoymaq, bunu gündəmə çevirmək bizə yaraşmaz. Nəzərə almalıyıq ki, şəhid ailəsi onsuz da kədərlidir, hüzünlüdür, psixoloji sarsıntı içindədirlər. Belə vəziyyətdə bir tərəfdən kimlərsə ”filankəs ağlamadı, dərdinə şərik olmadı” deyib onları əlavə basqı altına salmamalıdır. Sosial qruplar arasında aqressivliyə səbəb olacaq paylaşımlar da yanlışdır. İndiki halda biz cəmiyyət olaraq həmrəylik nümayiş etdirməliyik. Bölücülük aparmamalıyıq. Önəmli olan nəyin uğrunda şəhidliyə ucalmaqdır. Bayrağın kim tərəfindən təqdim edildiyi yox.

**Məlahət Rzayeva**



# Tokayev Nazarbayevin izlərini silməkdə israrlıdır

## Nursultan şəhərinin adının dəyişdirilməsi gözlənilən idi

**Qazaxıstan paytaxtının adı dəyişdirilib və yenidən Astana adlandırılıb. Prezident Kasım-Jomart Tokayev müvafiq konstitusiya dəyişikliyini təsdiqləyib. Xatırladaq ki, 1997-ci ilə qədər Qazaxıstanın paytaxtı Almatı şəhəri olub.**

Həmin il ölkənin mərkəzi şəhəri Akmolaya köçürülüb. 1998-ci ildə paytaxtın adı dəyişdirilib və Astana adlandırılıb. Qazaxıstanın sabiq rəhbəri Nursultan Nazarbayevin istefasından sonra 2019-cu ildə Kasım-Jomart Tokayevin təşəbbüsü ilə paytaxtın adı Nur-Sultana dəyişdirilmişdi. Nazarbayev 1991-2019-cu illərdə Qazaxıstana rəhbərlik edib.

“Bu baş verməsəydi, ilin əvvəlindəki baş verən hadisələrin mahiyyəti yarımçıq qalardı”

**Qərarı ”Şərq”ə şərh edən politoloq Azər Qasımov deyib ki, Nursultan şəhərinin adının dəyişdirilməsi gözlənilən idi. Analitikin fikrincə, bu baş verməsəydi, ilin əvvəlindəki baş verən hadisələrin mahiyyəti yarımçıq qalardı:** ”Bu, qazax xalqının demokratikləşmə və sivil dünya dövlətinə çevrilməsi yolunda atdığı addımların məntiqi nəticəsidir. Bunu Qazaxıstan dövlətinin başına gələn Kasım-Jomart Tokayevin ölkədə keçirməyi planlaşdırdığı referendumda da göstərir. Tokayev hər şəxsin bir müddətə prezident seçilməsi qaydasını ölkə konstitusiyasına gətirmək istəyir. Təbii ki, bu addım eyni zamanda, Nazarbayevin on illərlə formalaşmış dəyərlərini Qazaxıstan dövlətinin həyatından silmək üçündür. Qazaxıstan bu addımla müasir dünyanın bir hissəsi olmaq istədiyinin mesajını verir. Şəxsiyyətə pərəstiş, təkhakimiyyətliliklə yox, demokratik seçki yolu ilə hakimiyyətin idarə ediləcəyini dünyaya göstərməyə çalışır. Qazaxıstanın bu addımı qonşu ölkələrə də örnəkdir. Məlumdur ki, Türkmənistan və Tacikistan da avtoritarizmdən əziyyət çəkir. Qonşu xalqlar bir-birilərinə baxıb inkişaf etməli, dəyişməlidirlər. Digər Orta Asiya dövlətlərinin Qazaxıstanın yolu ilə getməsi regionun tarixi inkişafına səbəb ola bilər”.

**İsmayıl**



# Saxta göz yaşları...

## Qoca Pelosi xal toplamaq üçün gərginliyi artırdı

**Ermənistana səfər etmiş ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosi son sərhəd toqquşmasında Azərbaycanı günahlandırıb. O, ölkəmizi Ermənistan ərazisinə "qanunsuz hücumda" ittiham edib. Pelosi deyib ki, ABŞ "həmsədr" kimi aydın və çoxdan bəyan edib ki, münaqişənin hərbi yolla həlli mümkün deyil: "Biz münaqişənin sülh yolu ilə və uzunmüddətli həllinə çalışmaq istəyirik. "Dağlıq Qarabağ münaqişəsi" danışıqlar yolu ilə həll edilir.**

Ermənistan bizim üçün vacibdir və Konqres adından Azərbaycanın Ermənistana ölümcül hücumlarını, Ermənistan ərazisinə hücumlarını qətiyyətlə pisləyirik". Pelosinin İrəvandan səsləndirdiyi sərsəm bəyanatlar Azərbaycan rəsmiləri və ictimaiyyətin sərt reaksiyasına səbəb olub. Azərbaycan Xarici İşlər Nazirliyi Pelosinin açıqlamasını əsassız, ədalətsiz və qəbuledilməz adlandırıb: "N.Pelosinin Ermənistanda söylədikləri erməni təbliğatı əsasında verilmiş açıqlama kimi dəyərləndirilməlidir. Bu, Ermənistanla Azərbaycan arasında hazırda münasibətlərin normallaşması istiqamətində atılan səylərə ciddi zərbədir. Bu kimi birtərəfli addımlar və verilən əsassız açıqlamalar regionda kövrək sülhün gücləndirilməsinə deyil, əksinə, gərginliyin artmasına xidmət edir. ABŞ-ın daxili siyasi gündəliyində olan siyasi intriqalar və lobbi maraqlarının Ermənistan üzərindən Cənubi Qafqaz regionuna daşınması qəbuledilməzdir".

Türkiyə parlamentinin sədri Mustafa Şentop Pelosinin açıqlamalarını cavabsız qoymayıb. O bildirib ki, Pelosinin Ermənistana səfərini xoşniyyətli bir hərəkət kimi görmür: "Bir çox beynəlxalq təşkilatın Ermənistanı işğalçı elan etdiyi bu 28 illik müddətdə heç bir addım atmayan, tükünü tərpətməyən Minsk qrupunun həmsədrlərindən biri olan ABŞ-ın Nümayəndələr Palatası spikerinin Azərbaycanın torpaqlarını işğaldan azad etməsindən sonra Ermənistana səfər etməsi bölgədə barışa, eləcə də dünyada barışa faydalı olmayacaq".

İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani də məsələyə reaksiya verib. Bildirib ki, Cənubi Qafqaz regionunda gərginliyin və qeyri-sabitliyin artması heç bir region dövlətinin maraqlarına xidmət etmir: "Biz gərginliyi qızışdırmağı region ölkələrinin maraqlarına uyğun olduğunu düşünmürük. Çünki regionda sülh və sabitlik iqtisadi inkişaf, ticarət əlaqələrinin və əməkdaşlığın genişləndirilməsi üçün zəruridir. Bu, İranın prinsipial siyasətidir. Bu yanaşmadan kənar hər hansı yanaşmanı təxribat hesab edirik".

### *"ABŞ regionda sülhü, birgəyaşayışı yox, separatizmi dəstəkləyir"*

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, Nensi Pelosinin verdiyi açıqlamalar separatizmə dəstəkdir. Deputatın sözlərinə görə, amerikalı rəsminin belə həssas dövrdə Ermənistana səfəri, verdiyi açıqlamalar açıq-aydın separatizmə dəstəyin nümunəsidir:** "Bir müddət öncə Pelosi Tayvana səfər etməklə separatizmin dəstəkçisi olduğunu açıq nümayiş etdirmişdi. O, növbəti belə səfəri Ermənistana edərək sülhü, xalqların birgəyaşayışını deyil, separatizmi dəstəklədiyini bir daha göstərdi. Heç şübhəsiz ki, bu səfərdə Pelosinin əsas məqsədi seçkiqabağı dövrdə erməni lobbisinin dəstəyini qazanmaqdır. Artıq 85 yaşı olan Pelosi təqaüdə çıxmaq barədə deyil, hələ də Konqresdə kürsüsünü qoruyub saxlamaq haqqında düşünür. Əslində reallıq, məsələnin mahiyyəti budur. Onun Ermənistanda verdiyi açıqlamalar bu fikri bir daha təsdiq edir. Qeyd etmək lazımdır ki, Pelosi hər zaman ənənəvi ermənipərəst mövqeyi ilə seçilib və onun Ermənistana səfər zamanı bütün diplomatik çərçivələri aşan açıqlama və iddiaları bir daha bunu göstərir. Ermənistanın ərazi bütövlüyünə belə təəssüb və dəstək nümayiş etdirən Pelosi bu qədər ədalətli və haqqın tərəfindədirsə, 30 illik Ermənistan işğalçılığı dövründə niyə səsini çıxartmadı? Niyə Azərbaycana səfər etmədi?".

**Parlament üzvü bəyan edib ki, 30 il ərzində işğalçı Ermənistana qarşı hər hansı ittihamların səsləndirildiyinin şahidi olmamışıq:** "Azərbaycan torpaqlarını azad etdikdən sonra ona qarşı bu cür ədalətsiz yanşamanın nümayiş etdirilməsinin səbəbi nədir? Sonda onu da qeyd edək ki, Pelosinin etdikləri səlibçi təfəkkürün parlaq nümunəsidir. Onun timsah göz yaşları isə bəsit auditoriyaya hesablanmış növbəti oyun və təxribatdır. Tarixdən hər kəsə məlumdur ki, tarix boyu türk xalqlarına qarşı soyqırımı məhz ermənilər törədiblər. Ermənistanın soyqırımına məruz qalmasını iddia etmək ən azından saxtakarlıqdır. Bu kimi açıqlama və bəyanatlar bölgəyə sülhün gəlməsinə, təhlükəsizliyin təmin olunmasına ciddi mane olur".

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov da deyib ki, ABŞ Nümayəndələr Palatasının qalmaqallı spikeri Nensi Pelosi onsuz da bütün dünyada qızışdırıcı siyasətçi kimi tanınır. Onun sözlərinə görə, Pelosi İrəvana hərbi təxribatın səbəblərini və səbəbkarını axtarmağa gəlməyib:** "Onun məqsədi əsl həqiqəti üzə çıxarmaq deyil. Pelosi düşmən ölkənin paytaxtına məhz Azərbaycanı hədəfə almaq və Ermənistanı Rusiya ilə, o cümlədən KTMT ilə üz-üzə qoymağa gəlib. Bunu Pelosinin səsləndirdiyi "Əgər Ermənistan KTMT-ni tərk edərsə, ABŞ onu silahlandırmağa və təhlükəsizliyini təmin etməyə hazırdır", ifadəsindən də görmək mümkündür. Ermənilərin bu gün İrəvanda Amerika bayraqları ilə Rusiya əleyhinə aksiya keçirməsi və Ermənistanın KTMT-dən çıxmasını tələb etmələri də Pelosinin səfərinin əsl məqsədini üzə çıxarmış olur. Əslində Cənubi Qafqazdakı hazırkı kritik durumda Co Bayden Administrasiyası İrəvana Nensi Pelosi kimi qatı ermənipərəsti və müharibə "qırğı"sını yox, bölgədə qalıcı sülhün bərqərar olmasına töhfə verə biləcək sülhsevər diplomatları göndərməliydi. Çünki Pelosi kimi türk düşmənlərinin İrəvana səfərləri Ermənistan-Azərbaycan münasibətlərinə zərbə vurmaqdan başqa heç nəyə xidmət etmir".

*Partiya rəhbərinin sözlərinə görə, Ermənistan kimi təcavüzkar və terrorçu ölkənin yanında dayanmaq, ona dəstək vermək ABŞ kimi supergüc üçün rüsvayçılıqdır: "Pelosinin saxta "soyqırımı" abidəsinin üzərində axıtdığı gözyaşları isə uğursuz siyasi "şou"dan başqa bir şey deyil".*

**İsmayıl Qocayev**

# Gülüş və həyat Qarabağa qayıdır

## Növbəti tədris ilindən Şuşa və Ağdam məktəblərində də ilk zənglər çalınacaq



**"Gələn il işğaldan azad olunan torpaqlarımızın bərpası və eləcə də məskunlaşma üçün daha çox vəsaitin ayrılması nəzərdə tutulur". Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat qeyd edib ki, bu, məcburi köçkünlərin ata-baba yurdlarına gözləniləndən daha tez qayıtmasına imkan verəcək: "2023-cü il üçün dövlət büdcə layihəsinə əsasən, gələn il Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclər 3 milyard manat nəzərdə tutulub.**

Qeyd edək ki, büdcədən 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir. Azərbaycan işğaldan azad olunan ərazilərimizi heç bir xarici borclanma olmadan, yalnız daxili maliyyə resursları hesabına bərpa edir. Şərqi Zəngəzur və Qarabağda aparılan intensiv yenidənqurma işləri məskunlaşmanın gözləniləndən daha tez baş verəcəyindən xəbər verir. Qayıdışı əhalimizin təhlükəsizliyi qorunmaqla ağıllı şəkildə reallaşır".

**Parlament üzvü vurğulayıb ki, Zəngilan ilə yanaşı 2023-ci ilin ikinci yarısında artıq işğaldan azad olunan bir sıra digər rayonlarımızda da məskunlaşmaya start verilməsi gözlənilir:** "Dünən, 29 ildən sonra ilk dəfə Zəngilan məktəbində zəng çalındı. Növbəti tədris ilindən Şuşa və Ağdam məktəblərində də ilk zənglər çalınacaq. Füzuli və Cəbrayıl rayonlarında da bərpa işləri sürətlə həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur və bərpa edilir. Tezliklə Böyük Qayıdışın yeni mərhələləri başlayacaq. Gülüş və həyat Qarabağa qayıdır. Bu dəfə daimi...".

**İsmayıl**

# Şəhid qardaşının videosu araşdırılmalı, xalq nəticəni görməlidir

## Tural Abbaslı: "Əks təqdirdə bu ləkə Müdafiə Nazirliyinin üzərində qalacaq"



**"Şəhid qardaşının üzr videosu cəmiyyətdə çox böyük ajiotaj yaratdı. Bu da təbiidir. Əslində bu videonu çəkən və yayan adamlar da bilməli idi ki, şəhid qardaşına qarşı edilən bu qanunsuzluq və özbaşınalıq bağışlanmayacaq və üstəlik, ordumuzun adına ləkə gətirəcək". Bu sözləri AĞ Partiya sədri Tural Abbaslı hadisəylə bağlı "Şərq"ə açıqlamasında deyib.**

T.Abbaslının fikrincə, Baş Prokurorluq məsələ ilə bağlı araşdırmalarını iki istiqamət üzrə aparmalıdır. Əvvəlcə bu videonun çəkilməsində və paylaşılmasında marağı və əli olan şəxslər tapılıb məsuliyyətə cəlb olunmalıdır. Həmçinin 6000 manat rüşvət alan şəxslər də mütləq cəzalandırılmalıdır.

**T.Abbaslının sözlərinə görə, bu videonun arxasında daha böyük maraqlar var. Fikir versəniz, son 3-4 gün Azərbaycan Ordusunun fədakarlığı, qəhrəmanlığı, verdiyimiz onlarla şəhid, əldə olunan hərbi nailiyyətlər hamısı bu xəbərin fonunda kölgədə qaldı:** "Ölkənin ictimai mühitində, sosial şəbəkələrdə Müdafiə Nazirliyi qəfildən əsas tənqid hədəfinə çevrildi. Deməli ki, bu videonun çəkilməsi, ondan öncə səsləndirilən iddialar heç də təsadüfi deyil. Hesab edirəm ki, araşdırma zamanı Baş Prokurorluq bu məsələlərə də diqqət etməlidir. Araşdırmaların uzun-uzadı aparılmasına da gərək yoxdur. Şəhidimizin qardaşıyla söhbət edib, videonun harda, kimlər tərəfindən çəkildiyini öyrənmək nə çətin işdir ki!? Onsuz da artıq videonun kimlər tərəfindən çəkilməsi və necə yayılması hər kəsə bəllidir. Ola bilsin, prokurorluq da bu şəxslərin ifşa olunmasında maraqlı deyil. İctimai qınağı nəzərə alaraq, bir növ gözdən pərdə asmaq üçün hadisəylə bağlı iş açıb, istintaq apardıqlarını bəyan ediblər. Amma aidiyyəti qurumlar bilməlidir ki, araşdırmaların nəticəsi olaraq cəmiyyəti təmin edəcək faktlar aşkarlanmasa, rüşvət alan şəxslər və şəhid qardaşından üzr istədib onun videosunu çəkib paylaşan qüvvələr məsuliyyətə cəlb olunmadığı təqdirdə bu ləkə Müdafiə Nazirliyinin üzərində qalacaq".

**Şəymən**

# Tacikistan Orta Asiyanın "Ermənistanıdır"

## Böyük ehtimalla Türkiyə Qırğızıstan -Tacikistan qarşıdurmasına müdaxilə edəcək



**Qırğızıstan-Tacikistan sərhədində gərginlik davam edir. Qırğızıstanın dövlət qurumlarının məlumatına görə, Batken vilayətində silahlı qarşıdurmda həlak olanların sayı 60-dan çoxdur, yaralılar isə 140 nəfərə çatıb. Tacikistan isə itkilərlə bağlı rəsmi məlumatları açıqlamayıb. Məlumat üçün deyək ki, sentyabrın 16-da Qırğızıstan və Tacikistan sərhədinin bir neçə hissəsində dərhal atışma başlayıb və bu, insan tələfatı ilə nəticələnən böyük toqquşmalara çevrilib.**

Bir gün sonra Oş vilayətinin Çon-Alay rayonunda vəziyyət gərginləşib, iki ölkənin hərbçiləri arasında atışma olub. Tərəflər vəziyyətin gərginləşməsində bir-birini günahlandırıblar. Bunun 2021-ci ilin yazından bəri iki qonşu ölkə arasında baş verən ən böyük zorakılıq olduğu deyilir. Orta Asiyada sərhəd problemləri daha çox Sovet dövrü ilə bağlıdır, o zaman Moskva bölgəni etnik qruplar arasında bölməyə çalışıb. Son illərdə iqlim dəyişikliyi fonunda su qıtlığı ilə bağlı mübahisələrlə bağlı da gərginlik yaranıb. Hər iki tərəf bir-birini münaqişəni qızışdırmaqda, ağır silahlardan və pilotsuz uçuş aparatlarından istifadə etməkdə ittiham edir. Beynəlxalq Qızıl Xaç Komitəsi sentyabrın 17-də Qırğızıstan-Tacikistan sərhədində hərbi əməliyyatların intensivləşməsi və onun humanitar nəticələrindən narahatlığını bildirib. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) katibliyi mübahisəli məsələlərin həlli üçün güc tətbiq etmək cəhdlərini qəbuledilməz adlandırıb. Təşkilat siyasi və diplomatik yanaşmalara alternativ olmadığını, davamlı kompromis əldə etmək üçün vasitəçilik səylərini artırmağa hazır olduğunu vurğulayıb: "Qırğızıstan və Tacikistan KTMT-nin məsuliyyət zonasında sülhün və sabitliyin təmin edilməsinə böyük töhfə verir. Buna görə də Bişkek və Düşənbə arasında konstruktiv dialoq təkcə bu iki ölkə üçün deyil, təşkilata üzv olan bütün dövlətlərə lazımdır".

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, iki ölkə arasındakı gərginliyin səbəbi Fərqanə vadisinə görədir. Professor vurğulayıb ki, Orta Asiyanın ən məhsuldar torpaqları Fərqanə vadisindədir:** "Vadi üstündə zaman-zaman Orta Asiya ölkələrinin qarşıdurması yaşanır. Qırğızıstan və Tacikistanla yanaşı Özbəkistan da qarşıdurmalarda iştirak edir. Sovet vaxtı belə münaqişələrin yaşanması mümkün deyildi. Əfsuslar olsun ki, müstəqillikdən sonra gündəmə gəlmiş sərhəd problemi hələ də həllini tapmayıb. Əvvəlki dönəmlərdə iki ölkə arasındakı münaqişələrin əsas hərəkətverici qüvvəsi Rusiya idi. İndi isə bu dövlətləri qarışdıran İrandır. Tacikistan farsdilli ölkədir və İranla yaxınlığı bəllidir. Orta Asiyadakı ən böyük forpost, belə demək mümkündürsə, Orta Asiyanın "Ermənistanıdır". Rusiya hələ də öz ambisiyalarından əl çəkməsə də, indiki qarşıdurma Kremlə sərf etmir. Bölgədə baş verən proseslərdə Rusiya və İran təsiri ilə yanaşı, ABŞ-ın da müəyyən rolu var. Əfqanıstanla-Tacikistan münaqişəsi bunun bariz nümunəsidir. "Taliban" təşkilatı birmənalı şəkildə ABŞ-ın regiondakı ən böyük dayağıdır".

**C.Nuriyev vurğulayıb ki, İranın əsas dərdi isə Orta Asiya regionunu qarışdırmaq və Turanın yaranmasına mane olmaqdır:** "Tehran rejimi türk birliyi məsələsinə çox qısqanclıqla yanaşır. Bu məsələdə Rusiya ilə İranın mövqeləri üst-üstə düşür. Düzdür, normal məntiqlə iki müsəlman ölkənin üz-üzə gəlməsi İranın qəbul etmədiyi məsələ olmalıydı. Lakin fars rejiminin necə bir siyasət yeritdiyi hamımıza bəllidir. Ona görə də bölgəni qarışdırmaq üçün bütün imkanlardan istifadə edirlər.

Türkiyə Qırğızıstan-Tacikistan arasında vasitəçilik edə bilər. Sadəcə, hazırda qardaş ölkənin başında bir çox məsələ var. Ona görə də Türkiyə regional problemləri tədricən həll edir. Böyük ehtimal Türkiyə Qırğızıstan-Tacikistan qarşıdurmasına da müdaxilə edəcək".

**İsmayıl Qocayev**

# Kreml Ermənistanın hədəflərini anlayır

## Rusiya Paşinyandan razılaşmaya əməl etməsini daha sərt şəkildə tələb edəcək



**Baş nazir Nikol Paşinyanın hakimiyyətə gəlməsinin əsas missiyası Rusiyanın Ermənistanın üzərindəki təsirini azaltmaq və bölgədə Amerikanın plasdarmını yaratmaq idi".**

*Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı Ermənistanda gedən daxili proseslərə münasibət bildirərkən deyib.*

Analitik bildirib ki, Paşinyanın hakimiyyətə gəlməsindəki küçə hərəkatını Amerika kəşfiyyatçılarının işləməsi iddiaları dolaşır:

"Hələ Trampın vaxtında Paşinyandan Qarabağ məsələsinin həlli və Rusiyanın bu məsələdəki təsirinin sıradan çıxarılması tələb olunurdu. Lakin pandemiya dövründəki proseslər vəziyyəti dəyişdi. Rusiya bir növ qabağa düşdü. Ermənistanın danışıqlardan qaçması Azərbaycanın torpaqlarını hərbi yolla azad etməsinə gətirib çıxardı.

Rusiya isə bu məsələdə neytral mövqedə qaldı. Buna görə də rəsmi Moskva vəziyyətdən daha güclənmiş halda çıxdı. Müharibədən sonra Paşinyan hakimiyyəti rəsmi Moskva ilə yaxınlaşmaq istiqaməti götürmüşdü.

Amma zaman-zaman Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmaq məsələsi gündəmə gəldi. Sərhədlərimizdəki son erməni təxribatı da Rusiyanın üzv olduğu KTMT-ni gözdən salmaq üçün idi".

**Analitik onu da əlavə edib ki, son vəziyyət rəsmi İrəvanın Qərbə doğru yönəldiyini və ABŞ-la əlaqələr qurmaq istədiyini göstərir:** "Burada erməni diasporunun rolunu xüsusi vurğulamaq lazımdır. Münaqişənin həlli, sülh müqaviləsinin imzalanması və Türkiyə ilə münasibətlərin bərpası erməni diasporu üçün ciddi zərbə olacaq.

Çünki bu diaspor uzun illərdir, qondarma soyqırımı üzərində ideoloji baza formalaşdırır. Burada Kremlin məsələyə necə reaksiya verəcəyi sualı yaranır.

Rəsmi Moskva Ermənistanın "oyun" oynadığını anlayır və bunu heç də yumşaq qarşılamayacaq.

Rusiya üçün bazası olan Ermənistanı itirmək Cənubi Qafqazda ciddi güc əksilməsi deməkdir. Rəsmi Moskva vasitəçilik etdiyi razılaşmaların yerinə yetirilməsini daha sərt şəkildə tələb etməyə başlayacaq.

Rusiyaya da hakimiyyət dəyişikliyi sərf etmir. Onlara razılaşmalara imza atan Paşinyanın bu razılaşmaları icra etməsi daha vacibdir. Bundan sonra isə Paşinyanı devirmək daha asan olacaq".

*Qeyd edək ki, sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan Azərbaycanla sərhəddə genişmiqyaslı təxribat törədib. Bu təxribata cavab olaraq Azərbaycan Ordusu düşməni ağır itkilərə məruz qoyub. Bundan başqa, bir neçə önəmli strateji mövqe və yüksəkliyi ələ keçirib. Məlum hadisələrdən sonra Ermənistan daxilində Paşinyan hakimiyyətinə qarşı ciddi aksiyalar başlayıb. Hətta Paşinyanın hakimiyyətdən devrilməsi məsələsi gündəmə gəlib.*

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**



# Vətən dərsinin senarisini yazan şəhidlərimizdir

## Onu həyata keçirən, məktəbə, sinif otaqlarına daşıyansa gül balalarımız oldu

**Vətənimizə qarşı hər bir təcavüz millətimizi daha da gücləndirir. Azərbaycanın dövlətçilik tarixi belə örnəklərlə doludur. İstər qanlı 20 Yanvar gecəsi, istər Meşəli, Xocalı faciələri, istərsə də 44 günlük Vətən müharibəsi zamanı erməni vəhşilərinin Gəncə, Bərdə, Tərtərə raket zərbələri nəticəsində yüzlərlə din əhalinin qətlə yetirildiyi ağır günlərdə faciələrin xalqımızı daha da gücləndirdiyinin, Vətən sevgisini və onu qorumaq əzmini daha da artırdığının, Prezident və dövlətimizin ətrafında bir yumruq kimi birləşdiyinin, hər bir şəhidin qisasının qiyamətə qalmayacağına and içdiyinin və andına sadiq qaldığının şahidi olduq. Bu andı içənlər yalnız hərbçilər, döyüşən əsgər və zabitlər deyil, həm də gənclərimiz oldu. 12 sentyabrdan sonra - 15 sentyabrda isə xalq olaraq biz fidan balalarımızın da Vətənə sədaqət andına, şəhid ruhlarına ehtiramına şahidlik etdik.**

Ölkədə baş verən hərbi vəziyyətlə əlaqədar təhsil nazirinin əmri ilə 2022-23-cü tədris ilinin başlanğıcında məktəblərdə "Bilik Günü" təntənəli qeyd edilmədi. Tədris ilinin ilk dərs gününün ənənəsini şəhidlər dəyişdi, onların davamçıları olacaq məktəblilər isə yeni ənənənin əsasını qoydular. Artıq bundan sonra ölkəmizdə ilk dərs günü, tədris ilinin başlanğıcı Vətən dərsi olacaq. Həm də əyani dərs. İbtidai sinif şagirdlərindən tutmuş, XI sinif şagirdlərinədək bütün məktəblilər ilk dərs günü məktəbə əllərində gül-çiçəklə deyil, şəhid fotoları ilə gəldilər. Kimisi şəhid fotosunu əlində, başının üstündə daşıdı, kimisi də geyindiyi köynəyin üzərində - ürəyinin başında. Bununla da şəhidlərə ən böyük ehtiramı balacalar göstərdi. Adətən böyüklərdən örnək alan balacalar bu dəfə özləri hamıya, hər kəsə örnək oldular. Sinif otaqlarına şəhidlərlə "birgə" daxil oldular. Və bütün ölkəyə "bu gün Bilik günü deyil, Şəhidlər günüdür - Vətən günüdür", dedilər. Həmin gün yaddaşlara və Azərbaycan tarixinə belə yazıldı və bundan sonra heç unudulmayacaq. Çünki ilk dərs günü 152 min 6 yaşlı uşaq, ümumilikdə 1 milyon 610 şagird (2022-23-cü tədris ilində məhz bu qədər şagird ümumtəhsil məktəblərində təhsil alacaq - M.R.) "Bilik günü"nü Şəhidlərə Ehtiram günü kimi tarixə yazdı. Böyüməkdə olan nəslin göstərdiyi yüksək vətənpərvərlik nümunəsi, düşmənə ən layiqli, tutarlı cavabdır.

**Əməkdar jurnalist, siyasi şərhçi Elçin Mirzəbəyli "Şərq"ə açıqlamasında 2022-23-cü tədris ilinin başlanğıcının yaddaşlarda silinməz iz qoyduğunu və əsl vətənpərvərlik nümunəsi olduğunu söylədi:**

- Təbii ki, "Bilik Günü"nün Vətən günü, şəhidlərə ehtiram, ilk dərsin "Qarabağ Azərbaycandır!" olması təqdirəlayiqdir. Adətən biz uşaqların, yeniyetmə və gənclərin milli mənilik şüurunun inkişafından, vətənpərvər ruhda böyüməsindən, onlara Vətən sevgisinin aşılanmasından danışanda valideynlərin, məktəbin rolunu, keçilən dərslərin məzmununu, məktəblilərlə əlavə iş aparılımasının vacibliyini, onlarda vətənpərvərlik hisslərinin tərbiyə olunmasında məktəb-ailə tandemini vurğulayırıq. Təsadüfi deyil ki, həm 20 Yanvar, eləcə də Xocalı faciəsinin anıldığı günlərdə Şəhidlər Xiyabanını, "Ana fəryadı" abidəsini ziyarət edənlər arasında yeniyetmə və gənclərin, hətta kiçik yaşlı uşaqların da olduğunu görürük. Valideynlər özləri uşaqların əlindən tutub Şəhidlər Xiyabanına aparır. Azərbaycan insanında Vətənə sevgi, Vətənin bütövlüyünə xor baxanlara qarşı əzmkarlıq, şəhidlərə sonsuz ehtiram belə qoyulub. 15 sentyabrda da şəhidlər bizə əsl vətənpərvərlik günü yaşatdılar. Əlavə izaha, əlavə dərsə ehtiyac olmadan. Və hamımız gördük ki, balacalar, məktəbə hələ yeni qədəm basan, ilk addımlarını atan balacalar bəlkə də hamıdan artıq bu dərsi əxz ediblər. Əla öyrəniblər. Bunu onların şəhid fotolarını əllərində daşıması, kövrək barmaqlarının gül-çiçəkləri deyil, şəhid şəkillərini bərk-bərk tutduqları göstərdi. Kimsə əvvəlcədən belə bir senari hazırlasaydı, yəqin bu qədər təsirli, inandırıcı alınmazdı. Lakin Vətən dərsinin senarisini yazan şəhidlərimizdir! Onu həyata keçirən, məktəbə, sinif otaqlarına daşıyansa gül balalarımız oldu. Yeniyetmə və gənclər Azərbaycanın qəhrəman oğullarını, Vətənin ərazi bütövlüyü uğrunda canından keçənləri, şəhid və qaziləri unutmamalıdırlar, unutmayacaqlar da. Xalq olaraq biz artıq buna əminik. Çünki kiçik yaşlı məktəblilərin şəhidlərin xatirəsinə necə ehtiramla yanaşdıqlarını gördük.

**"Xalq olaraq biz artıq buna əminik. Çünki kiçik yaşlı məktəblilərin şəhidlərin xatirəsinə necə ehtiramla yanaşdıqlarını gördük"**

**E.Mirzəbəyli qeyd etdi ki, uşaq və yeniyetmələrin, gənclərin xatirəsində, hafizəsində yaşayan şəhidliyin unudulmaması, bundan sonra onların tədrisinin hansı istiqamətdə davam edəcəyindən də çox asılı olacaq:**

- Əlbəttə, müharibə və itkilər ağırdır. Xüsusən də, əgər itirilən gənclər, həyatı, ömrünün böyük hissəsi qarşıda olan gənc əsgər və zabitlərdirsə. Lakin Azərbaycan xalqı artıq bu reallığı da dərk edib qəbul edir ki, müharibəni biz başlamamışıq, əgər düşməni sərhəddə qarşılamasan, sabah evinin içində qarşılamalı olacaqsan. Biz buna 1990-cı illərdə şahid olduq. Ona görə də Vətənin bütövlüyü, dövlətimizin güclənməsi və ona zərrə qədər də zərər toxunmaması naminə döyüşməyi bacarmalıyıq və hazırlıqlı olmalıyıq. Bu reallıq yeniyetmə və gənclərə də aşılanmalıdır. Bizim gənclərin ən böyük üstünlüyü odur ki, onlar nağıl, əsatir qəhrəmanlarının igidlərindən bəhs edən kitablarla böyüməyib, onlar əsl, real qəhrəmanların həyat hekayələri ilə böyüyüblər. Əsl qəhrəmanlar onların gözü önündədir - bu, şəhidlər və qazilərdir. Hesab edirəm ki, milli qəhrəmanlarımız haqqında real həyat lövhələrinin əks olunduğu hekayələr yazılmalı, bu hekayələr səmimi yazılmalıdır. Əlavə rəngə, boyaya heç ehtiyac yoxdur. İstər Birinci Qarabağ savaşında, istərsə də 44 günlük Vətən müharibəsində gənclərə örnək olacaq, onlara şəhidliyin fəlsəfəsini anladacaq real həyatdan alınmış saysız-hesabsız qəhrəmanlarımız var. Onlar haqqında yazılmalı və bu hekayələr dərsliklərə daxil edilməli, tədris proqramına salınmalıdır. Bu günün gəncliyi real qəhrəmanlara bənzəməlidir. Vacib deyil, hər kəs hərbçi olsun, əsas budur ki, hər kəs öz sahəsində, sabah yiyələnəcəyi ixtisasda, peşədə Vətənə ləyaqətlə xidmət etsin. O zaman şəhidlərin ruhu qarşısında içdikləri andlara sadiq qaldıqlarını sübut etmiş olacaqlar.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Maaşlar artırılır

## Universitet müəllimlərinin rifahı yaxşılaşır

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) saathesabı dərs deyən müəllimlərin əməkhaqqıları 50 faiz artırılıb.**

Bildirilib ki, UNEC-də saathesabı qaydada dərs deyən müəllimlərin sosial rifahının yüksəldilməsi, maddi durumunun yaxşılaşdırılması və fəaliyyətlərinin stimullaşdırılması məqsədilə əməkhaqqıları artırılıb.

"Şərq" olaraq digər universitetlərdə saathesabı dərs deyən müəllimlərin maaşlarının yüksəldilmə ehtimalı ilə bağlı mətbuat xidmətləri ilə əlaqə saxladıq.

**Sorğunu təqdim edirik:**

**Bakı Dövlət Universitetinin (BDU) ictimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Kəmalə Quliyeva qeyd edib ki, işçilərin sosial rifahının gücləndirilməsi BDU rəhbərliyinin daim diqqətindədir:**

"Son iki ildə BDU-da saathesabı dərs deyən müəllimlərin əməkhaqları 2 dəfə qaldırılıb".

**Azərbaycan Tibb Universitetinin (ATU) mətbuat xidmətinin rəhbəri Günel Aslanova** bildirib ki, bu ilin yanvar ayında saathesabı dərs deyən müəllimlərin əməkhaqqlarında artım ilk olaraq ATU-da gerçəkləşib:

"Hazırda isə planlaşdırılmır".

Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) mətbuat katibi Şəhanə Müşfiq bunları vurğulayıb: "Bu barədə bir məlumat yoxdur".

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) mətbuat katibi Cavid Hüseynov** diqqətə çatdırırb ki, ADPU-da maaşlar cari ilin əvvəlində artırılıb: "Hazırda yox, amma qarşıdakı zamanda yenə artım gözlənilir".

**Aygün Tahir**

# Ermənilərdən bəhs edən kitab Azərbaycan türkcəsində çap olunacaq








## Şahbaz Xuduoğlu Dilqəm Əhmədin təklifini müsbət qarşılayıb

**Tanınmış araşdırmaçı-jurnalist Dilqəm Əhməd feysbuk profilində ermənilərdən bəhs edən bir kitabın fotosunu paylaşıb. Araşdırmaçı öz statusunda əslən azərbaycanlı Esat Urasın "Tarihte ermeniler ve ermeni meselesi" adlı kitabı barədə qısa məlumat verib. 800 səhifəlik kitabın ermənilər barədə yazılmış ən mükəmməl əsər olduğunu ifadə edən Dilqəm Əhməd nəşriyyatlara çağırış edib:**

"Bu, kitabın birinci nəşridir. Türkiyədə ikinci nəşri də çıxıb. Amma daha sonra unudulub. İngilis dilində də var. Azərbaycanda imkanı olan nəşriyyatlar, qurumlar dilimizə uyğunlaşdırıb çap etsələr gözəl olar. Ənənəvi Xocalı tədbirlərindən birinin pulunu buna xərcləmək olar".

**Jurnalist vurğulayıb ki, kitabın yazarının ailəsi bir zamanlar Şirvandan köçmədirlər:** "Əsəd bəy Türkiyə Böyük Millət Məclisində deputat da olub".

**"Qanun" nəşrlər evinin təsisçisi və rəhbəri Şahbaz Xuduoğlu "Şərq"ə açıqlamasında sözügedən kitabla maraqlanmağa başladığını deyib:** "Dilqəm Əhmədin statusundan xəbərim var. O, belə məsələləri yaxşı bilir. Mühüm mövzuları təhlil edir, incələyir, üzə çıxarır. Həmçinin, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı arxiv yaradır. Bu mənada Dilqəmin statusu ekspert rəyi kimi mənim üçün qiymətlidir. Ona görə də bəhs etdiyi kitabı diqqətə aldım. Dərhal maraqlanmalarını tapşırdım. İndi həmin kitabı əldə etməyə çalışırıq. Əldə edəndən sonra kitabı Azərbaycan türkcəsinə uyğunlaşdırıb çap edəcəyik".

Ş.Xuduoğlu bənzər təşəbbüslərin olduğunu da söyləybi: "Biz hamısını dəyərləndirmişik. İndiyə kimi Qarabağ mövzusunda xeyli kitablar nəşr etmişik. Bu yaxınlarda "Zəngəzur" romanını, Qarabağdan bəhs edən "Qarabağnamələr"i çap etmişik. Bir alman müəllifin "Qarabağın qısa tarixi" adlı kitabını buraxmışıq. Yəni təkliflər səsləndikcə, biz də onlara əsaslanıb kitablar nəşr edirik".

**İsmayıl Qocayev**

# Gənclərə imkan yaradılır

## Daha potensiallı kadrlar vergi orqanlarına işə cəlb olunurlar



**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ərazi vergi orqanlarında və rayon vergilər şöbələrində (Dövlət Vergi Xidmətinin regionlarda yerləşən strukturları üzrə) vakant vəzifələrə işə qəbulla bağlı müsabiqə elan edib.**

Müsabiqənin keçirilməsində məqsəd dövlət vergi orqanlarının regionlarda yerləşən strukturlarının kadr ehtiyacını qarşılamaq, eyni zamanda potensiallı gəncləri dövlət vergi orqanlarına işə qəbul etməkdir. Bu, dövlət vergi orqanlarına işə qəbulla bağlı sayca 18-ci müsabiqədir.

Vergi məsələləri üzrə ekspert Anar Bayramovun sözlərinə görə, müsabiqənin keçirilməsində yeni yanaşmalar

yüksək intellektə, məntiqi düşünmə bacarığına və geniş dünyagörüşünə malik gənclərin müəyyən edilərək dövlət vergi orqanlarına işə qəbul olunması məqsədilə müsabiqə qaydalarında bir sıra dəyişikliklər edilib: "Belə ki, hüquq sahəsi istisna olmaqla, digər sahələr üzrə namizədlər üçün ixtisas məhdudiyyəti götürülüb və qanunvericiliklə müəyyən edilmiş tələblər çərçivəsində ali təhsilə malik bütün vətəndaşların müsabiqədə iştirakına açıq və bərabər imkanlar yaradılıb.

Bundan əlavə, əvvəlki illərdən fərqli olaraq, bütün ixtisaslar üzrə test imtahanının sual bankından vergilər və vergitutma üzrə suallar çıxarılıb, əvəzində namizədlərin dünyagörüşünü, xüsusən də Azərbaycanın digər sahə qanunvericilik aktları, tarixi, coğrafiyası, müasir beynəlxalq münasibətləri, dünyada baş verən yeni tendensiyalarla bağlı biliklərini, məntiqi düşüncə səviyyəsini və bacarığını ölçən testlərdən ibarət yeni sual bazası hazırlanıb".

Ekspert deyib ki, dəyişikliklərin edilməsində əsas məqsəd gənclərə dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün daha geniş imkan yaratmaq, daha potensiallı gəncləri müəyyən edərək işə qəbul etmək, onların vergilər və vergitutma sahəsində zəruri peşə biliklərini və bacarıqlarını nəzəri və praktiki təlimlər vasitəsilə artırmaq və dövlət vergi orqanları üçün hazırlıqlı kadr yetişdirməkdir.

Qeyd edək ki, işə qəbul Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə müvafiq qaydada, müsabiqə əsasında həyata keçirilir. Müsabiqə test imtahanı və müsahibədən ibarət olacaq.

**Şəymən**

# Gənclərin intiharı daxili aləmləri ilə bağlıdır

## “Elə bilirlər burnunu kəsdirəndə özgüvənləri yerinə gələcək”



**Azərbaycanda intihar hadisələri tüğyan edir. Az qala hər gün bir neçə şəxsin özünə qəsdi barədə xəbərlər eşidirik. İntihar edən şəxslərin yaşları kimi, ölüm səbəbləri də fərqlidir. Hətta bir çoxlarınınkı müəmmalı olaraq qalır. İntihar edənlərin əksəriyyətini isə gənclər və yeniyetmələr təşkil edir.**

Əvvəllər gənc yaşda olan birinin həyatına qəsd etməsi adama dəhşətli yuxu kimi görünürdü. Aylarla, hətta illərlə həmin hadisə müzakirə mövzusuna çevrilirdi. Amma indi vəziyyət dəyişib. Gənclər arasında intihar ”trend” olub. Düzdür, bəzən insanların, xüsusən də gənclərin özünə qəsdinin arxasında intihara məcburetmə faktorları dayanır. Bəzən də insan elə bir psixologiyada olur ki, səbəbsiz yerə intihar edir. Normal həyatı ola-ola təsəvvüründə gərgin mühit yaradır və həmin mühitin təsiri ilə özünə qəsd edir. Gəncləri intihara vadar edən səbəblər arasında kompakslər mühüm yer tutur. Xarici görünüşlərini bəyənməyən, həyatının bu görünüşlə davam edəcəyindən qorxanlar üçün ölüm ən asan yol kimi görünür. Qeyd edək ki, ötən günlərdə yaşadığı evdə özünü asan Azərbaycan Tibb Universitetinin tələbəsi Əli Quliyevin də qulaqlarına qarşı kompleksi olub. Bir dəfə estetik əməliyyat keçirən Əli Quliyev nəticədən razı qalmayıb. İkinci dəfə əməliyyat etdirmək istədikdə isə həkimlər buna icazə verməyib. Bu səbəbdən o, özünü öldürmək qərarına gəlib.

**Psixoloq Azad İsazadə isə ”Şərq”ə açıqlamasında deyib ki, insanlar adətən özlərini bəyənmirlər, səsi, videoları və sairə xoşuna gəlmir. Və daimi çalışır ki, plastik əməliyyatla öz formasını daha da yaxşı etsin.** Bu da psixoloji amillərə ziddir və çıxış yolu kimi yalnız plastik əməliyyat düşünülür. Halbuki, reallıqda biz bilirik ki, heç də əməliyyatların hamısı uğurlu olmur və insan daha da pis görünür.

Konkret olaraq bu gəncin intihar səbəbini müzakirə etmək çətindir.

### *Azad İsazadə: "Xarici görünüşünü dəyişmək istəyən insanların 90 faizi öz daxilində natamamlıq kompleksi yaşayır"*

Çünki fakt barədə detallardan xəbərsizəm: ”Amma praktikama əsasən deyə bilərəm ki, Sovet dövründə plastik əməliyyatlar çox az idi və ancaq Moskvada, mərkəzi klinikalarda aparılırdı. Orada nəinki hərtərəfli müayinələr, həm də mütləq şəkildə psixoloqun icazəsi lazım idi. İstisnasız əməliyyat etdirmək istəyən insanlardan öncə psixiatr qəbulunda olduğuna dair arayış tələb olunurdu. Plastik əməliyyat təbii ki, cərrahi əməliyyatdır və istər-istəməz burada lazımi tələblər daha ciddi olmalıdır.

Həkim əmin olmalıdı idi ki, əməliyyat edəcəyi xəstə hansısa psixoloji faktorun, ətrafdakı insanların mənəvi təsiri altında deyil. Mən özüm də bir neçə dəfə fiziki qüsurlarına görə estetik əməliyyat etdirmək istəyən insanlara müsbət rəy vermişəm. Amma bir pasiyentimə imtina rəyi verdim və özbaşıma yox, ümumi komissiyanının rəyi əsasında. İndi isə zəmanə fərqlidir. İnsanlar ehtiyac oldu-olmadı plastik əməliyyatlara üz tuturlar. Xüsusən də daxilən natamamlıq kompleksi yaşayan insanlar elə bilir ki, burnunu kəsdirib, dodağını böyütsə, yaxud qulağını kiçiltsə, özgüvəni yerinə gələcək və o, daha qüsurlarına görə özünə qapanmayacaq. Halbuki, bütün bunların həlli xaricdə yox, daxildədir. Məhz bu səbəbdən əməliyyatı uğursuz alınan insanların psixologiyası daha da pozulur. Estetik cərrahlar əməliyyatdan əvvəl və sonra öz pasiyentlərini psixoloqa yönləndirməlidir. Hazırda plastik əməliyyatlar aparan çoxlu sayda klinikalar var. Çox zaman müayinələr düzgün aparılmır və sonda faciəli nəticə yaranır. Olur ki, müayinə düzgün aparılmır, insan narkozdan ayılmır və yaxud əməliyyat uğurlu aparılmır, xəstə narazı qalır. Tez-tez rastlaşırıq ki, bəzi plastik əməliyyatları hətta gözəllik salonlarında aparırlar. Çox zaman bu, mənfi təsir göstərir. Bunun üçün də bu məsələyə ciddi nəzarət olunmalı, klinikalarda çalışan həkimlərin peşəkarlığı yoxlanılmalıdır”.

**Psixoloqun sözlərinə görə, xarici görünüşündəki qüsurları özünə dərd edib, həmişə kompleksli gəzən insanlar adətən iradəsi və özgüvəni zəif olan insanlardır. Bəzən deyirlər ətrafdakılar bizə lağ edir, amma bütün bunlar da bəhanədir:** ”Xarici görünüşünü dəyişmək istəyən insanların 90 faizi öz daxilində natamamlıq kompleksi yaşayır. O qədər fiziki qüsurlu insanlar var ki, öz həyatlarına normal şəkildə davam edirlər və ətrafdakıların nə düşündüyünə heç bir əhəmiyyət vermirlər. Əsas olan insanın özünü olduğu kimi qəbul etməsidir. Özünü bütün qüsurları ilə sevən insanı ətrafındakı insanlar da o cür sevib hörmət edir. İnsanın fiziki qüsuru, xarici görünüşündəki nöqsan onun həyatı və sağlamlığı üçün təhlükə yaratmırsa, bunun üçün narahat olmağa, əməliyyat etdirməyə əsas deyil. Burun əməliyyatı o halda vacibdir ki, burundakı əyrilik nəfəsalmada çətinlik yaradır. Bizdə isə insanlar burun əyriliyi o yana qalsın, bir balaca uzun və ya enli olan kimi gedib kəsdirirlər ki, pis görünürdüm. Kiminsə xoşuna gəlmək üçün bu cür böyük risklər almaq absurddur. Həm də ki estetika məsələsi çox fərqlidir. Hər kəsin bir zövqü var. İnsanların xoşuna gəlmək üçün burnunu kəsdirən insanlar var ki, yenə də kimlərinsə xoşuna gəlməyəcək”.

**Şəymən Bayramova**



# Şəhidlərin və ailələrinin borcları silindi

## Natiq Cəfərli: ”Təşəbbüsü alqışlayır və gələcəkdə dövlət orqanlarının və şəxsi mağazaların daha aktiv olmasını arzu edirəm”



**”Azərbaycan Banklar Assosiasiyası” (ABA) İctimai Birliyinin Rəyasət Heyətinin geniş tərkibdə iclası keçirilib.**

Tədbir zamanı cari ilin sentyabr ayında düşmən təxribatı nəticəsində döyüşlərdə şəhid olmuş hərbçilərimizin banklara olan bütün növ kredit öhdəliklərinin və onlara hesablanmış faizlərin tam həcmdə silinməsi məsələsi yekdilliklə təsdiq edilib. Bundan başqa bir sıra özəl mağazalarda da şəhidlərin və onların ailələrinin borcları silinib.

**Bu addımın Azərbaycanda cəmiyyət ilə ordunun amallarının bir olmasının göstəricisi olduğunu deyən iqtisadçı Natiq Cəfərli ”Şərq”ə bildirib ki, təşəbbüs müsbət dəyərləndirilməlidir:** ”Sözügedən məsələ sosial məsuliyyətin artırılmasında böyük önəm daşıyır. Bu, dövlət müəssisələrinin və şəxsi mağazaların şəhid ailələrinin problemlərinin həllində daha duyarlı davranması üçün önəmli örnəkdir. Şəhid ailələrinin və qazilərin sosial problemlərinin həlli boynumuzun borcudur.

Ümid edirəm ki, bundan sonra onlara ayrılan diqqət daha da artırılacaq. Əgər dövlət orqanları da bunda iştirak etmək üçün dövlət büdcəsindən vəsaitlər xərcləyəcəklərsə, lap gözəl. Təşəbbüsü alqışlayır və gələcəkdə dövlət orqanlarının və şəxsi mağazaların daha aktiv olmasını arzu edirəm. Buradan şəhidlərimizə rəhmət, xalqımıza və onların ailələrinə səbir diləyirəm”.

**Nihat Müzəffər**

# Heç bir direktorun müəllimdən pul yığmağa haqqı yoxdur

## Məktəblərin təmiri Təhsil Nazirliyinin öhdəsindədir





**”Heç bir məktəb direktorunun müəssisənin təmiri işləri ilə bağlı müəllimdən əlavə ödəniş tələb etməyə ixtiyarı yoxdur”.**

**Bu sözləri ”Şərq”ə açıqlamasında təhsil eksperti Elçin Əfəndi deyib. Onun sözlərinə görə, məktəbin təmiri birbaşa Elm və Təhsil Nazirliyi (ETN) öhdəliyində olan prosesdir:** ”ETN isə aidiyyəti orqanlar qarşısında məsələ qaldırmaqla dövlət büdcəsindən müəyyən vəsaitin ayrılmasını tələb edib, onun əsasında müvafiq məktəbin lazımi işlərini görə bilər. Bu gün hər hansı bir məktəb rəhbəri müəllimdən ödəniş istəyirsə, bu, qeyri-qanuni əməldir. Təbii ki, həmin şəxs haqqında müvafiq tədbir görülməlidir. Həmçinin direktor müəllimin işə gəlmədiyi günlərin pulunu əmək haqqıdan çıxılacağı şərtini qoyursa, bunun özü də yolverilməzdir. Çünki onun qeyd etdiyimiz kimi, belə bir səlahiyyətləri yoxdur.

Görünən odur ki, rəhbər müxtəlif üsullarla ya öz mənafeyini güdür, ya da şəxsi büdcəsini artırmaq üçün müəyyən alternativ yollar axtarır. Müəssisədə çalışan təxminən 20 müəllimdən 50 AZN yığılması, kifayət qədər maliyyənin toplanması deməkdir. Təbii ki, bu addım qanunvericiliyə ziddir. Heç bir müəllim məktəbin maddi və texniki təminatına cavabdeh deyil. Yəni öz əmək haqqından pul ayırmamalıdır. Yalnız könüllülük prinsipi əsasında mümkündür.

Əks halda, direktorun məcburi müəllimdən müəyyən qədər pul istəməyə ixtiyarı yoxdur. Hazırda Azərbaycan müəlliminin əmək haqqısının ideal olmadığı məlumdur. Bu halda hər hansı pul verməsi doğru yanaşma deyil. Müəllimdən kağız, təbaşir pulu və s. yığılır. Bu da azmış kimi, müəssisənin təmirinə də ödəniş istəyirsə, məktəb başqa hansı funksiyanı yerinə yetirir?! Dövlət hər il büdcədən orta təhsil müəssisələrinə müəyyən vəsait ayırır ki, hansısa ərazidə məktəbin təmir-tikintisi ilə bağlı işlər aparılsın. Bəs onda direktor niyə vaxtında məsələ qaldırıb, müəssisənin təmirə ehtiyacı olduğunu bildirməyib? Bəlkə də vəsait ayrılıb, amma kimsə ”yeyib”. Bunlar araşdırılmalı faktlardır. Düşünürəm ki, bu barədə müəllimlər ETN-yə şikayət ərizəsi ünvanlamalıdır. Belə hallara yol verən məktəb direktoru ilə bağlı ciddi tədbirlər görülməlidir”.

*Qeyd edək ki, Sumqayıt şəhər 32 saylı orta məktəbin direktoru orta təhsil müəssisəsinin təmiri adı ilə müəllimlərdən 50 AZN pul tələb edib.*

**Sücayət Mehti**

**Elan**

İsgəndərov Toğrul Nadir oğluna Milli Aviasiya Akademiyası tərəfindən verilmiş Diplom AB-İ № 086442 itdiyi üçün etibarsız sayılır.

”Yeni Kristal-9999” MMC, VÖEN № 1302716171 məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Meridian-Qe MMC, VÖEN № 1400540431 məxsus möhür itdiyi üçün etibarsız sayılır.

”Kristal-9999” MMC, VÖEN № 1302303631 məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Yusifov Fazil Abdulla oğluna məxsus AAAF park yaşayış kompleksi küçə 11, bina 9, mən. 11,12-yə məxsus evin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Y.Əliyev küçəsi 13A-da yaşayan Misirov Namaz Şakir oğluna məxsus 9-cu sinif şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

# Gündə 5-6 stəkan bəsdir!

## Çox çay içmək ziyanlıdır



**Türk çayı maddələr mübadiləsini sürətləndirir.**

”Şərq” ”CNN Türk”ə istinadən xəbər verir ki, türk çayının bilinməyən özəllikləri mövcuddur. Çay həmçinin qan təzyiqini tarazlaşdırır. Qaraciyərin yağlanmasının qarşısını alır. Bu mənada alimlər hesab edirlər ki, çayı sadəcə içki vasitəsi kimi düşünmək olmaz.

Eyni zamanda insanların gündəlik həyatı üçün əsas sosiallaşma vasitəsidir. Bəs hər gün zövqlə içilən çayın faydalarını bilirikmi? Bu barədə qidalanma və pəhriz mütəxəssisi Nurdan Çeliktaş danışıb.

O, çayda ”tein”, ”flavonoid” və ”polifenollar” kimi xüsusi molekulların olduğunu deyib. Bütün bunlar insan sağlamlığı, bağırsaq sistemi üçün xeyirlidir.

Bundan başqa, ”salmonella” kimi bəzi qida bakteriyalarının böyüməsinə də maneə törədir. İnsulinə qarşı müqavimətdə və ya diabetli xəstələrə müsbət təsiri müşahidə olunub.

Həmçinin ürək-damar, bağırsaq sisteminin də yaxşılaşdırılmasına kömək edir. Lakin çox içmək ziyanlıdır. Çox çay içən hamilə qadınlarda az çəkili körpələrin doğulması müşahidə olunub. Ona görə də gündəlik istehlakda 5-6 stəkandan çox içilməməlidir. Təbii ki, vaxta da diqqət yetirmək lazımdır. Yeməkdən 45 dəqiqə sonra içmək tövsiyə olunur. Axşam saat 21:00-dan sonra isə istifadəsi məsləhət deyil.

**Sücaət Mehti**

# İki yaşlı uşağı oğurlayan qadın

## Azyaşlını atasından 3 min manata aldığını deyib



**Bakının Sabunçu rayonunda 2 yaşlı uşağı oğurlamaqda ittiham olunan Gültəkin Muradovanın cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən iclasda sərbəst ifadə verən Gültəkin Muradova ona qarşı irəli sürülən ittihamları qəbul etməyib. O, iki yaşlı Məhəmməd Şıxəliyevi atasından 3 min manata aldığını deyib: ”O uşaqlara yazığım gəlirdi. Soyuq havada ayaqyalın gəzirdilər. Heç kim onlara baxmırdı. Məhəmmədi aparmaqda məqsədim onun qayğısına qalmaq idi. Mən uşağı gizli yolla da aparmamışam, həmin vaxt ailənin digər üzvləri də evdə olub. Mən uşağı oğurlamamışam, atası Elgün Nəsirov onu mənə 3 min manata satıb”.

Qeyd edək ki, ittihamda göstərilib ki, təqsirləndirilən Gültəkin Muradova qeyri-rəsmi nikahda olduğu şəxslə birgə Sabunçu rayonu, Kürdəxanı qəsəbəsində yaşayıb. O, övlad sahibi olmadığına görə kiminsə uşağını götürüb saxlamaq istəyib. Bu məqsədlə qəsəbədə yerləşən yaşayış massivlərini gəzib, oğurlamaq üçün uşaq axtardığı vaxt özünü aztəminatlı ailələrə yardım edən şəxs kimi göstərib.

Hadisə baş verən gün Gültəkin Muradova yenidən həmin evə gedib və uşağın anasının, eləcə də onun qeyri-rəsmi nikahda yaşadığı şəxsin evdə olmadığını görüb. Həmin vaxt azyaşlı Məhəmməd Şıxaliyev bacısı Firuzənin yanında olub. İttiham olunan şəxs uşağı aparan zaman azyaşlının bacısı ona etiraz edib. O, Məhəmmədə şirniyyat alıb geri gətirəcəyini deyib.

Təqsirləndirilən şəxs bir neçə gün sonra saxlanılıb, azyaşlı aidiyyatı üzrə təhvil verilib.

Gültəkin Muradova barəsində Cinayət Məcəlləsinin 144-cü (adam oğurluğu) maddəsi ilə ittiham elan edilib, barəsində həbs qətimkan tədbiri seçilib.

Azyaşlı tapılandan sonra Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidməti uşağın atası Elgün Nəsirovun da saxlanması barədə məlumat yayıb. Məlumatda onun bu işdə iştirakının ehtimal olunduğu qeyd olunaraq araşdırma aparıldığı bildirilmişdi. Həmçinin Gültəkin Muradova ilə qeyri-rəsmi nikahda yaşayan Şamil Əliyevin də saxlanıldığı açıqlanmışdı.

Hazırda yalnız təqsirləndirilən şəxs qismində Gültəkin Muradova məhkəmə qarşısına çıxarılıb.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2691



## Kosmosda ən uzun uçuş rekordu vuran kosmonavt vəfat edib

**Kosmosda ən uzun uçuş rekordu vuran rusiyalı kosmonavt Valeri Polyakov 81 yaşında vəfat edib. APA-nın Moskva müxbirinin məlumatına görə, bu barədə ”Roskosmos” xəbər verib.**

Qeyd edək ki, Polyakov iki kosmik ekspedisiya edib. Ümumilikdə o, orbitdə 678 gün 16 saat olub. Polyakovun tədqiqatı insan orqanizminin təkcə Yerə yaxın orbitə deyil, həm də uzaq kosmosa uçuşlara hazır olduğunu sübut etməyə kömək edib.

Polyakovun ekspedisiyanın rekordu 1994-cü ilin yanvarından 1995-ci ilin martına qədər ”Mir” stansiyasında uçuşu zamanı qeydə alınıb. Bu uçuşa görə Polyakov Rusiya Qəhrəmanı adına layiq görülüb. O, 1989-cu ildə kosmosa ilk uçuşuna görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

## “Heç vaxt kitab oxumamışam"

### Uest podkast yayımında təəccüblü etiraflar edib



**Bütün zamanların ən yaxşı reperləri arasında yer alan və diqqət çəkən açıqlamaları ilə tez-tez gündəmdə olan Kanye Uest qatıldığı podkast yayımında təəccüblü etiraflar edib.**

Olay xəbər verir ki, o, ”Hello Mind Full” yayımınında ”Mən heç vaxt kitab oxumamışam”,- deyə bildirib.

Podkast aparıcısı Denni Harrisin ona kitab tövsiyə etməsi ilə bu açıqlamanı verən Uest, ”Bu kitabı oxumadığımı dediniz, amma onsuz da heç vaxt kitab oxumamışam. Kitab oxumaq mənim üçün Brüssel kələmini yemək kimidir”,- söyləyib.







# Hər yerə qaya parçaları döşənir

### Fransa hökuməti bununla mühacirlərin düşərgə qurmasına əngəl olmağa çalışır




**Fransanın şimalında yerləşən Calais (Kale) şəhərində mühacirlərin düşərgə qurmasının qarşısını almaq üçün müəyyən nöqtələrə qaya daşları döşəyirlər. Bələdiyyənin bunun üçün 45 min avro büdcə ayırdığı açıqlanıb.**

Fransa mətbuatının xəbərinə görə, sentyabrın 12-dən etibarən şəhərin mərkəzinə, xüsusilə yaşıl və açıq ərazilərə yüzlərlə ton qaya parçaları yerləşdirilib.Qayalar Dunay və Maas sahillərində, xüsusən də qatar stansiyası yaxınlığında müəyyən nöqtələrə döşənib.Calais Bələdiyyə Başçısı Natacha Bouchart, immiqrantların düşərgə qurmasının qarşısını almaq üçün tətbiq etdikləri təcrübəni müdafiə edərək, ”Şəhərin mərkəzində narahat düşərgələr istəmiriksə, hərəkətə keçməliyik” deyə bildirib. O qeyd edib ki, bələdiyyə qaya parçaları üçün 45 min avro büdcə ayırıb. Bölgədəki mühacirlərə yardım edən insan haqları təşkilatları mühacirlərin düşərgə qurmasının qarşısını almaq üçün Kale administrasiyasının belə bir üsuldan istifadə etməsini pisləyib. İnsan Haqları Müşahidəçiləri Təşkilatının rəsmiləri yay aylarında immiqrantların qayalıq ərazilərdə yaşadığını, lakin avqustun 3-dən ərazinin boşaldıldığını və keçən həftə miqrantların Maas körpüsünə köçürüldüyünü bildirib. Səlahiyyətlilər, təşkilatların mühacirlərə ərzaq yardımı etməsinə mane olmaq üçün şəhər mərkəzindəki bəzi nöqtələrin qayalarla əhatə olunduğunu bildirib. Calais administrasiyası iyun ayında körpülərin altında qalan immiqrantları qovmaq üçün ərazilərin hasarlandığını bildirib.

*Bələdiyyə ərazilərə qaya parçaları döşəmək üçün 45 min avro büdcə ayırıb*

Hazırda La-Manş sahilində yerləşən Kale şəhərində dənizi keçərək İngiltərəyə getmək istəyən çoxlu sayda miqrant var.

**Turan**

## Qan damarlarını, görməni gücləndirir

### Üzüm çəyirdəyinin həddən ziyadə faydaları var



**Mütəxəssislər üzüm çəyirdəyinin damar genişlənməsinə qarşı həddən ziyadə faydalı olduğunu bildirirlər.**

**Üzüm çəyirdəyi linol, palmitin, sitearin və digər yağ turşuları ilə birlikdə, xüsusilə antiaging E vitamini və müxtəlif mineralları özündə cəmləşdirir. Üzüm çəyirdəyi güclü antioksidantlar baxımından və oligomerik proantisianidin kompleksleri (OPCS) baxımından zəngindir (polifenol). Bu məhsul xərçəng hüceyrələrini məhv etməkdə kimyaterapiyadan daha səmərəlidir. Qan damarlarını gücləndirir, Makula degenerasiyası (gözün tor qişasının xəstəliyi) və gecə korluğuna qarşı qoruyucudur: Hansı ki, bu cür göz xəstəliklərinin profilaktik terapiyasında öməmli olan A, C və E vitaminləri, lutein və sink üzüm çəyirdəyinin tərkibində vardır. Histaminin ifrazını azaldaraq, allergiyanı önləyir. Odur ki, üzümü çəyirdəkləri ilə bərabər (əzərək) yeyin. Və ya çəyirdəkləri üyüdülərək toz şəklinə salınaraq su, bal və ya kefirlə qəbul edilir. Tərkibindəki kollagen və resveratrol qırışlara qarşı mübarizədə çox mühüm rola malikdir. Bu səbəbdən üzüm çəyirdəyinin yağından istifadə etmək olar.**

**Şəymən**

## Yağışa görə planları pozulan Ledi Qaqa ağladı



**Amerikalı müğənni-aktrisa Ledi Qaqa sonuncu konserti hava şəraiti ilə bağlı baş tutmadığı üçün ağlayıb.**

**Axşam.az xəbər verir ki, bu barədə o sosial media hesabında paylaşım edib. O, şiddətli fırtına səbəbindən insanların təhlükəsizliyi üçün səhnəni tərk etməli olduğunu bildirib. Qaqa videoda göz yaşlarına hakim ola bilməyib və ağlayıb.**

**İfaçı Mayamidəki konsertinin baş tuta bilməməsinə kədərlənsə də, insanların təhlükəsizliyinin daha vacib olduğunu vurğulayıb.**

## Narkotik çəkdiyi görüntülər Şeymaya baha başa gəldi

### Məşhur idman markası onunla əməkdaşlığı sonlandırıb



**Xəbər verdiyimiz kimi, sosial media fenomeni Şeyma Subaşı bir müddət əvvəl misirli sevgilisi Mohammed Alsaloussi ilə əylənərkən narkotik vasitədən istifadə edərkən görüntülənmişdi. Axşam.az xəbər verir ki, videonun ortaya çıxması fenomenə baha başa gəlib. Bildirilib ki, sözügedən görüntülərin ardından məşhur idman markası onunla əməkdaşlığı sonlandırıb. Şeyma xəbərlərdən sonra Türkiyənin səhiyyə nazirliyinin nəzdində olan laboratoriyaya yollanıb və test verib. Vəkili açıqlama yayaraq bildirib ki, narkotik istifadə edib-etməməsi ilə bağlı müvəkkilinin verdiyi testlərin nəticəsi neqativ çıxıb.**

***Qeyd edək ki, Şeyma keçmiş həyat yoldaşı Acun Ilıcalıdan boşanandan sonra qızları Melisanın qəyyumluğu iş adamına verilsə də anası ilə qalır.***



# İranda etiraz dalğası getdikcə böyüyür

### Məhsa Əminin ölümündən sonra qadınlar baş örtüklərini yandırıb

**İranda hicaba görə saxlanılan qızın ölümü ilə bağlı Rəşt şəhərində polis və etirazçılar arasında qarşıdurma baş verib.**

APA-nın Tehran bürosunun məlumatına görə, qarşıdurma zamanı bir neçə nəfər xəsarət alıb.

Dünən həmçinin paytaxt Tehranda Məhsa Əminin ölümü ilə bağlı etiraz aksiyası keçirilib. Tehranın Vəliəsr xiyabanında keçirilən aksiyanı dağıtmaq üçün xüsusi qüvvələr cəlb olunub. Aksiya iştirakçıları hökumət əleyhinə şüarlar səsləndirib. Təhlükəsizlik qüvvələri ilə aksiya iştirakçıları arasında qarşıdurma baş verib. Etirazçılar polis maşınını aşırıblar.

Analoji aksiya Məşhəd şəhərində də keçirilib.

Qeyd edək ki, son günlər Məhsa Əminin əxlaq polisinin binasında ölümünə etiraz məqsədi ilə İranın bir çox şəhərində aksiyalar keçirilir. Kürdüstan əyalətinin Saqqız şəhərində bazarda mağaza sahibləri etiraz əlaməti olaraq mağazalarını açmayıblar.

Müxtəlif şəhərlərdə qadınlar M.Əminin ölümünə etiraz məqsədilə baş örtüklərini yandırıb, saçlarını kəsirlər.

## Bəzi dərmanları içənlərə meyvə şirəsi olmaz



**Statinlər qəbul edən pasiyentlərə meyvə şirələri təhlükəlidir.**

”Medicina” xəbər verir ki, bir çox meyvə şirələrində statinlərin sovrulması və öz işini görməsinə mane olan birləşmələr var.

Terapevt İrina Andreyeva meyvə şirələri əks-göstəriş olan statinlərin adlarını çəkib.

- Atorvastatin
- Lovastatin
- Simvastatin

Statinlər qaraciyərdə xolesterin sintezini azaltmaq üçün ürək, şəkər xəstələrinə təyin olunan müasir preparatdır.

Bir çox şirələrlə xüsusən qreypfrut şirəsi ilə statinlər orqanizm üçün toksiki təhlükəli ola bilir.

Hazırda həkimlər xəstələrə statinlərlə birgə meyvə şirələrini qadağan edir.

## Döşəmənin altında gizlənən sirr

### Henri ailəsinin aldığı ev havadan asılı vəziyyətdədir





**ABŞ-ın Arkanzas əyalətində yaşayan Henri ailəsi uzun illər böyük, geniş ev arzusuyla yaşayıb. Nəhayət makler onlara uyğun ev tapdığını xəbərini verib.**

Emili və Jefri Henri 2 övladları ilə birlikdə evə baxmağa gedib. Evi təftiş ediblər və bəyəniblər. Uşaqlar üçün seçdikləri geniş otağın döşəməsinin bəzi hissələrinin çökük olduğunu fərq ediblər, lakin ”onsuz da parketləri söküb, döşəməni yeniləyəcəyik” fikirləşərək buna ciddi əhəmiyyət verməyiblər. Və evi satın alıblar. Bundan sonra təmir başlayıb və döşəmədəki parketlər də sökülməyə başlayıb. Henri ailəsi döşəmənin altında gizlənən sirri gördükdə gözlərinə inanmayıb. Parketin çökük yerinin altında, demə, 12 metr dərinliyində nəhəng hovuz varmış. Hovuzla döşəmə arasında da böyük boşluq olduğu kimi qalırdı. Evin əvvəlki sakinləri otağın mərkəzindəki hovuz sevdasından əl çəkmiş, lakin boşluğu doldurmayıblar. Halbuki, hovuz yerinin betonlar doldurulması gərəkirdi. Evin yeni sahibi Emili Henri ”döşəmənin parketləri söküldüyündə nəhəng bir hovuz qarşımıza çıxdı və biz bununla nə edəcəyimizi bilmirik” deyib. Bu azmış kimi yataq otağının altından da cakuzi ”çıxıb”. Henri ailəsi başa düşüb ki, aldıqları ev havadan asılı vəziyyətdədir. Okean ortasında bir ada kimidir. Onların iki seçimi var: ya boşluqları betonla doldurub evin zəminini möhkəmlətməli, ya da bu hovuz və cakuzini təkrar işlək vəziyyətə gətirməlidirlər. Henri ailəsi suya meyilli görünür və hovuzla cakuzini işlək vəziyyətə gətirəcək usta axtarışına çıxdıqlarını söyləyirlər. Bu iş ailəyə 30 min dollara başa gələcək.

**Məlahət**

## Mədə xəstəliklərini müalicə edir

### Qüdrət narını ev şəraitində də yetişdirmək mümkündür




**Qüdrət narı, bəzi yerlərdə Afrika xiyarı, acı qovun, balzam alması və ya armudu da deyilir. Latınca momordica adının mənası dişlənmiş, sanki yeyilmiş vəziyyətdə bitir. Kal olarkən yaşıl, yetişəndə sarı-qırmızıya çalan rəng alır.**

Fitoterapevt Dr. Elnur Eldaroğlunun ”Şərq”ə açıqlamasına görə, Vətəni Hindistan olsa da Azərbaycanda da əkilib-becərilir. Türkiyədə çox məşhurdur: ”Bu nar növü, əczaçılıq sahəsində geniş istifadə olunur. Qüdrət narı bol su və günəşlə təmin olunarsa, onu hətta dibçəkdə də yetişdirmək mümüköndür. Əksər xəstəliklərin müalicəsində istifadə edilən nar, həm də kolit, qastrit kimi mədə və bağırsaq pozulmalarına da güclü təsir edir. Qüdrət narlı məcun şəklində də tapa bilərsiz. Qüdrət narlı məcun 1 çay qaşığı 3 dəfə yeməkdən öncə yeyilir.

Həzm xəstəlikləri üçün yaxşıdır. Gündə bir qaşıq qüdrət narı, bal və zeytun qarışımı bağırsaqlardakı qəbizlik problemini aradan götürür.

Xalis zeytun yağı içində 6 ay gözlədilən qüdrət narı isə hər səhər bir xörək qaşığı qaba qoyularaq, 1 xörək qaşığı balla qarışdırılaraq aç qarına da yeyilir.

Şişlərin qarşısını alır. Bəzi araşdırmalara görə, qüdrət narının faydalarından biri də şişin qarşısını almaq və hüceyrə sağlamlığını qorumaqdır. Meyvənin üst hissəsi və yarpaqları şəkər xəstəliyi zamanı istifadə olunur”.

**Şəymən**